© Avropa Şurası, 2024. Bu tərcümə Avropa İttifaqı və Avropa Şurasının maliyyə dəstəyi ilə hazırlanmışdır. Onun məzmununa görə yalnız Avropa Şurası məsuliyyət daşıyır və Avropa İttifaqının fikirlərini əks etdirməyə bilər.

© Council of Europe, 2024. This translation was produced with the financial support of the European Union and the Council of Europe. Its contents are the sole responsibility of the Council of Europe and do not necessarily reflect the views of the European Union.

*Mətbuat Bölməsi*

EUROPEAN COURT OF HUMAN RIGHTS
COUR EUROPÉENNE DES DROITS DE L'HOMME

Məlumat bülleteni – Qadınlara qarşı zorakılıq

Dekabr, 2023-cü il
Bu Məlumat Bülleteni Məhkəmə üçün heç bir məsuliyyət müəyyənləşdirmir və buradakı məlumatlar tam deyil.

# Qadınlara qarşı zorakılıq

## Məişət zorakılığı

Bax: “Məişət zorakılığı” Məlumat Bülleteni

## Həbsdə olduğu müddətdə pis rəftar

**Juhnke Türkiyəyə qarşı**

22 iyul 2003-cü il

Ərizəçi qeyri-qanuni silahlı təşkilat olan PKK-nın (Kürdüstan Fəhlə Partiyası) üzvü olmaqda şübhəli bilinərək həbs edilmiş və daha sonra ittiham edilərək 15 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmişdir. O, həbsdə saxlandığı müddətdə pis rəftara və iradəsinə zidd olaraq ginekoloji ekspertizaya məruz qaldığını xüsusilə şikayət etmişdir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ərizəçinin pis rəftara məruz qaldığına dair şikayətini əsaslandırmaq üçün sübut olmadığını müəyyən edərək onun şikayətinin bir hissəsini açıqcasına əsassız olması səbəbi ilə mahiyyəti üzrə araşdırma üçün **qəbuledilməz** hesab etmişdir. Məhkəmə daha sonra ərizəçinin ginekoloji müayinəyə məcburedilmə şikayətinin əsassız olduğunu müəyyənləşdirərək bu səbəbdən də İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmadığı** qənaətinə gəlmişdir. Bununla belə, Məhkəmə müəyyən etmişdir ki, ərizəçi razılığa gələnədək ginekoloji ekspertizaya qarşı müqavimət göstərmişdir və məhkumun belə bir vəziyyətdə həssaslığını nəzərə alaraq ərizəçidən müayinədən keçməsinə qarşı müddətsiz müqavimət göstərməsini gözləmək məqbul deyil. Konvensiyanın 8-ci maddəsi (şəxsi həyata və ailə həyatına hörmət hüququ) baxımından Məhkəmə bu məsələni araşdırmağı qərara almışdır.

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Ərizəçinin sərbəst və məlumatlı razılığı olmadan ona tətbiq edilən ginekoloji ekspertizanın "qanunla" və ya "demokratik cəmiyyətdə zəruri" olduğunun göstərilmədiyi öyrənilərək Məhkəmə **Konvensiyanın 8-ci maddəsinin** müddəalarının **pozulmuş olduğu** qənaətinə gəlmişdir.
Beləliklə, xüsusi olaraq keçirilmiş bu ekspertizanın ərizəçinin həbsi zamanı onu həbs edən və həbsdə saxlayan təhlükəsizlik qüvvələrinin üzvlərini onlara qarşı cinsi zorakılıq haqqında saxta şikayətlərdən müdafiə etmək məqsədilə səlahiyyətli orqanlar tərəfindən özbaşına görülmüş tədbir olduğu aşkara çıxmışdır. Halbuki bu növ müdafiə, xüsusən də məhkumun cinsi zorakılıq barədə şikayət vermədiyini nəzərə alaraq onun fiziki toxunulmazlığına belə bir narahatedici və ciddi müdaxilə edilməsinə razı salmaq cəhdləri üçün kifayət etməmişdir.

## Polis zorakılığı

### Aydın Türkiyəyə qarşı

25 sentyabr 1997-ci il
Bax aşağıda: "Zorlama və cinsi zorakılıq"

### Y.F. Türkiyəyə qarşı (Ərizə № 24209/94)

22 İyul 2003-cü il
1993-cü ilin oktyabrında ərizəçi və onun arvadı qeyri-qanuni silahlı təşkilat olan PKK (Kürdüstan Fəhlə Partiyası) tərəfindən törədilmiş cinayətdə köməkçi və təhrikçi kimi iştirak etməkdə şübhəli bilinərək polis tərəfindən tutulmuşdur. Ərizəçinin əri dörd gün polis məntəqəsində saxlanılmışdır. O, gözləri bağlı vəziyyətdə saxlanıldığını və polis əməkdaşları tərəfindən polis dəyənəkləri ilə döyüldüyünü, şifahi təhqir edildiyini və zorlamaqla təhdid edildiyini bildirmişdir. O, həkim tərəfindən müayinə olunmuş və növbəti ekspertiza üçün ginekoloqa aparılmışdır. O, pərdə arxasında müayinə olunduğu müddətdə polis əməkdaşları binada qalmışlar. 1994-cü ilin mart ayında ərizəçi və onun arvadı bəraət almışdır. 1995-ci ilin 19 dekabr tarixində üç polis əməkdaşı ərizəçinin arvadını ginekoloji ekspertizadan keçməyə məcbur etməklə onun şəxsi həyatına müdaxilə etdiklərinə görə ittiham olunmuşlar. Onlar 1996-cı ilin may ayında bəraət almışlar. Ərizəçi arvadınınınekoloji ekspertizadan keçməyə məcbur edilməsi ilə Konvensiyanın 8-ci maddəsinin (şəxsi həyata və ailə həyatına hörmət hüququ) pozulduğunu iddia etmişdir.
Məhkəmə Konvensiyanın **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulması** qənaətinə gəlmişdir. Məhkəmə hesab etmişdir ki, həbsdə saxlanıldığı müddətdə ərizəçinin ərinin üzərində tam nəzarət səlahiyyətli orqanların əlində olduğu üçün o, həssaslığı nəzərə alınaraq ginekoloji ekspertizaya qarşı müqavimət göstərə bilməmişdir. Buna görə də onun şəxsi həyatına hörmət hüququna müdaxilə olunmuşdur. Türkiyə Hökuməti tibbi zərurətin və ya qanunla müəyyən edilmiş digər şərtlərin mövcudluğunu əsaslandıra bilməmişdir. Məhkəmə həbs olunmuş şəxslərin məhkəmə-tibbi eksperti tərəfindən tibbi ekspertizanın aparılmasının cinsi qısnama və ya pis rəftarın baş verməsinə dair saxta ittihamlara qarşı vacib təminat vasitəsi olması arqumentlərini qəbul etsə də, hər bir şəxsin fiziki toxunulmazlığına hər hansı bir müdaxilənin qanunla nəzərdə tutulmasını və həmin şəxsin razılığının olmasını zəruri hesab etmişdir. Burada belə bir halın olmadığı səbəbindən müdaxilə qanunauyğun olmamışdır.

### Maslova və Nalbandov Rusiyaya qarşı

24 yanvar 2008-ci il
Bax aşağıda: "Zorlama və cinsi zorakılıq"

### Yazgül Yılmaz Türkiyəyə qarşı

1 fevral 2011-ci il

Bu işdə ərizəçi 16 yaşında olduğu zaman polis tərəfindən tutularkən seksual qısnamaya məruz qaldığını şikayət etmişdir. Onun bakirəliyinin pozulub-pozulmadığını müəyyən etmək üçün özünün və ya himayəçisinin razılığı və heç bir müşayiət olmadan ginekoloji ekspertiza aparılmışdır. Bəraət aldıqdan və azadlığa çıxdıqdan sonra ərizəçi post-travmatik stress və depressiyadan əziyyət çəkmişdir. Onun həbsdə olduğu müddətdə baş vermiş zorakılığa dair şikayətləriı aparılmış növbəti tibbi ekspertizalar vasitəsilə təsdiqlənmişdir. Müvafiq həbsxana həkimləri barəsində isə heç bir intizam icraatı aparılmamışdır.
Məhkəmə həmin dövrdə həbs olunmuş qadınların ekspertizası ilə əlaqədar qanunda zəruri mühafizə (təminat) müddəalarının nəzərdə tutulmadığını bildirmiş və xüsusilə yetkinlik yaşına çatmayanlar üçün ginekoloji ekspertizalar aparmaq məqsədilə əlavə təminatların tələb olunduğunu qeyd etmişdir. Polis əməkdaşlarına qarşı saxta cinsi zorakılığa dair ittihamların qarşısını almaq üçün nəzərdə tutulmuş ginekoloji ekspertizaların aparılması üzrə ümumi təcrübə həbsdə saxlanılan qadınların mənafelərinə uyğun olmamış və heç bir tibbi əsası olmamışdır. Ərizəçi zorlama əsası ilə deyil, seksual qısnama faktı ilə şikayət etmişdir ki, bunun təkzibi üçün onun bakirəliyinin yoxlanılması tələb olunmur. Məhkəmə Türkiyənin yeni Cinayət-Prosessual Məcəlləsində ginekoloji ekspertizaların keçirilməsinin tənzimləndiyini, lakin yetkinlik yaşına çatmayanlar üçün xüsusi bir müddəanın olmadığını qeyd etmişdir. Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmasının** həm polis məntəqəsində ərizəçinin üzərində ginekoloji ekspertizanın aparılması, həm də təqsirləndirilən şəxslər barəsində qeyri-adekvat istintaqın aparılması səbəblərindən baş verdiyi qənaətinə gəlmişdir.

**B.S. İspaniyaya qarşı (Ərizə № 47159/08)**

24 iyul 2012-ci il

Bu iş Palma de Mallorka şəhərinin ətrafında fahişəliklə məşğul olarkən polis tərəfindən tutulmuş bir Nigeriya əsilli qadın barəsindədir. Ərizəçi xüsusi olaraq şikayətində yerli polis əməkdaşları tərəfindən dindirmə üçün tutularkən şifahi və fiziki zorakılığa məruz qaldığını bildirmişdir. O, eyni zamanda fahişəlik etdiynə, dərisinin rənginə və cinsinə görə ayrı-seçkiliyə məruz qaldığını qeyd etmişdir.
Məhkəmə müəyyən etmişdir ki, İspaniya dövləti tərəfindən iki halda – ərizəçinin küçədə tutulduğu və dindirildiyi zaman pis rəftara məruz qalma şikayətlərinə qarşı adekvat və səmərəli istintaq aparılmamışdır. Bu da Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) prosessual aspektdən **pozulmasına** səbəb olmuşdur.
Bundan əlavə, Məhkəmə milli məhkəmələr tərəfindən ərizəçinin bir afrikalı qadın kimi fahişəlik fəaliyyəti ilə əlaqədar düşdüyü xüsusi həssas vəziyyətinin nəzərə alınmadığını və beləliklə, Konvensiyanın **3-cü maddəsi ilə birlikdə 14-cü maddəsinin** (ayrı-seçkilik qadağan olunması) də **pozulmasında** ayrı-seçkilik olub-olmadığını müəyyənləşdirmək üçün bütün mümkün tədbirləri icra etmək öhdəliyini yerinə yetirmədiklərini hesab etmişdir.
Məhkəmə son olaraq ərizəçinin pis rəftara dair şikayəti ilə əlaqədar Konvensiyanın **3-cü maddəsinin pozulmadığı** qənaətinə gəlmişdir.

**İzci Türkiyəyə qarşı**

23 iyul 2013-cü il

Bu iş İstanbulda Qadınlar Gününü qeyd etmək məqsədilə dinc nümayişdə iştirak edərkən polis hücumuna məruz qalan və Türkiyədə sözügedən polis amansızlığına qarşı dözüm göstərildiyini və tez-tez belə halların cəzasız qaldığını xüsusi olaraq şikayətində qeyd edən bir türk qadını barəsindədir.
Məhkəmə Konvensiyanın həm maddi-hüquqi, həm də prosessual baxımdan **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) və **11-ci maddəsinin** (yığıncaqlar və birləşmək azadlığı) **pozulduğu** qənaətinə gəlmişdir. Məhkəmə xüsusi olaraq hesab etmişdir ki, Türkiyəyə qarşı əvvəllər qaldırılmış bir sıra məhkəmə işlərində də polis əməkdaşları qeyri-zorakı və ictimai asayişə təhlükə törətməyən kütlələri dağıtmağa cəhd göstərərkən müəyyən tolerantlıq və müqavimət dərəcəsi nümayiş etdirməyi bacarmamış və nümayişçilərə qarşı qeyri-mütənasib gücdən istifadə edilməsi halları ərizəçinin yaralanması ilə nəticələnmişdir.

Bundan əlavə, Türkiyənin səlahiyyətli orqanları tərəfindən cavabdeh polis əməkdaşlarının müəyyən edilməməsi və cəzalandırılmaması sözügedən dövlətin Konvensiya çərçivəsində pis rəftar iddiaları ilə əlaqədar səmərəli istintaqın aparılması öhdəliyinə əməl etməsinə ciddi şübhələr yaratmışdır. Nəhayət, polis əməkdaşları tərəfindən həddən artıq şiddətin istifadə edilməsi insanların nümayiş etmək istəyinə çəkindirici təsir göstərmişdir.
Bu işdə Məhkəmə təkrar olaraq qeyd etmişdir ki, nümayişlər zamanı hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən sərbəst toplaşmaq azadlığı və/və ya həddindən artıq güc tətbiq edilməsi ilə əlaqədar Türkiyəyə qarşı çoxlu sayda şikayətlər hələ də baxılmamış qalmaqdadır. Problemin sistemli cəhətini nəzərə alaraq, Məhkəmə gələcəkdə baş verə biləcək oxşar pozuntuların qarşısını almaq məqsədilə Konvensiyanın **46-cı maddəsinə** (qərarların məcburi qüvvəsi və icrası) **dair öhdəliklərinə uyğun olaraq**, Türkiyənin səlahiyyətli orqanlarından **ümumi tədbirlər qəbul etməyi** tələb etmişdir.

## Afət Sürəyya Eren Türkiyəyə qarşı

20 oktyabr 2015-ci il
1999-cu ilin iyun ayında qeyri-qanuni siyasi qruplaşmanın üzvü olduğuna görə şübhəli bilinərək tutulan ərizəçi həbsdə olduğu müddətdə əvvəllər işgəncəyə bərabər olan pis rəftara məruz qaldığı barədə şikayət etmişdir. Bundan əlavə, ona qarşı pis rəftara dair şikayətləri ilə əlaqədar səlahiyyətli orqanlar tərəfindən səmərəli istintaqın aparılmadığını bildirmişdir.
Məhkəmə maddi-hüquqi və prosessual baxımdan Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmuş olduğu** qənaətinə gəlmişdir. Ərizəçidən qanunsuz siyasi təşkilatla şübhəli bağlantılarına dair məlumat almaq məqsədilə ona qarşı törədilmiş pis rəftarın xarakterini, dərəcəsini və ağır nəticələrini xüsusilə nəzərə alaraq, Məhkəmə sözügedən pis rəftarın yalnız işgəncə kimi xarakterizə oluna biləcək ciddi və amansız iztirab olduğunu müəyyən etmişdir. Məhkəmə, həmçinin istintaqın aparılmasının və cinayət mühakimə icraatının qaydalarına riayət olunmasının qeyri-adekvat olduğunu və bu səbəbdən də Dövlətin 3-cü maddəyə əsasən prosessual öhdəliklərini pozduğunu müəyyən etmişdir.

## Dilek Aslan Türkiyəyə qarşı

20 oktyabr 2015-ci il
Azadlıqdan məhrum edilmiş şəxslərin ailələrinə dəstək məqsədilə broşuralar paylayarkən 2006-cı ilin oktyabrında həbs olunmuş ərizəçi (qadın) polis tərəfindən pis rəftara məruz qaldığını və səlahiyyətli orqanlar tərəfindən sözügedən şikayətlə əlaqədar səmərəli istintaqın aparılmadığını şikayət etmişdir. O, həmçinin onun fikirlərini əks etdirən broşuraları yaymaq hərəkətinin güc tətbiq edilməklə qarşısının alındığını bildirmişdir.
Məhkəməyə təqdim edilən sübutlar ərizəçinin polis tərəfindən pis rəftara məruz qaldığına dair əsaslı şübhələri araşdırmağa imkan verməmişdir. Buna görə də Məhkəmə Konvensiyanın maddi-hüquqi baxımdan **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmadığı** qənaətinə gəlmişdir. Digər tərəfdən isə Məhkəmə ərizəçinin pis rəftara dair şikayətlərinin səlahiyyətli orqanlar tərəfindən adekvat və səmərəli istintaqının aparıla bilmədiyini və buna görə də prosessual baxımdan Konvensiyanın **3-cü maddəsinin pozulduğunu** müəyyən etmişdir. Nəhayət, Məhkəmə Konvensiyanın **10-cu maddəsinin** (ifadə azadlığı) **pozulmuş olmadığı** qənaətinə gəlmişdir.

## Ebru Dinçer Türkiyəyə qarşı

29 yanvar 2019-cu il
Bu iş 2000-ci ilin dekabr ayında Bayrampaşa Həbsxanasında (İstanbul) təhlükəsizlik qüvvələri tərəfindən həyata keçirilmiş əməliyyatla əlaqədar idi ki, əməliyyat zamanı ərizəçi qadın yataqxanasında baş vermiş yanğın səbəbindən sifəti də daxil olmaqla bədəninin müxtəlif hissələrində ciddi yanıq xəsarətləri almışdı.

Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulduğunu** bildirmiş və konkret olaraq bu qənaətə gəlmişdir ki, yanğının səbəbini müəyyənləşdirməyə yalnız istintaq və ya səmərəli prosedur qaydalar imkan verə bilərdi. Lakin faktlar baş verdikdən təxminən 18 il keçməsinə baxmayaraq, yanğının səbəbinə aydınlıq gətirilməmişdi və cinayət işinə baxılması I instansiya məhkəməsində (Assize Court) hələ də davam edirdi. Bundan əlavə, ölkədaxili cinayət mühakimə icraatında ərizəçinin fiziki və mənəvi iztirablarına səbəb olmuş zorakılığa birmənalı olaraq onun öz davranışının səbəb olması sübut edilməmişdi.

**Lopez Martinez İspaniyaya qarşı**

9 mart 2021-ci il (Komitənin qərarı)

Bu iş "Konqresi mühasirəyə al" şüarı ilə keçirilən nümayişdə iştirak etmiş bir neçə şəxsin, o cümlədən ərizəçinin Madriddə Konqresin mənzil-qərargahının kənarındakı kafedən polis tərəfindən zorla təxliyə edilməsindən sonra İspaniyanın səlahiyyətli orqanları tərəfindən aparılmış araşdırma ilə əlaqədar idi.

Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan olunması) **pozulduğunu** qərara almış və iş üzrə olan materiallara əsasən müəyyən etmişdir ki, işin konkret halları baxımından daxili məhkəmələr tərəfindən aparılmış araşdırma 3-cü maddənin prosessual aspektinin tələblərinə cavab vermək üçün kifayət qədər hərtərəfli və səmərəli olmamışdır.

*Həmçinin bax*:

**Sládková Çex Respublikasına qarşı**

10 noyabr 2022-ci il

## Zorlama və cinsi zorakılıq

**X və Y Niderlanda qarşı (Ərizə № 8978/80)**

26 mart 1985-ci il

Əqli qüsurlu bir qız (ikinci şikayətçi) on altı yaşı (Niderlandda cinsi əlaqə üçün icazə verilən yaş həddi) tamam olduqdan bir gün sonra yaşadığı əqli qüsurlu uşaqlar üçün internat evində məsul şəxsin qohumu tərəfindən zorlanmışdır. O, sarsıntı keçirmiş, lakin onun zehni inkişaf yaşının az olduğunu nəzərə alaraq rəsmi şikayəti imzalamaq üçün qeyri-müvafiq hesab edilmişdir. Qızın atası (birinci şikayətçi) sözügedən sənədi onun yerinə imzalamış, lakin, şikayətin qızın öz tərəfindən verilməli olduğu səbəb gətirilərək təqsirləndirilən şəxsə qarşı məhkəmə icraatı başladılmamışdır. Ölkənin məhkəmə qurumları qanunda bir boşluq olduğunu müəyyən etmişdir.

Məhkəmə xatırlatmışdır ki, Konvensiyanın 8-ci maddəsində (şəxsi həyata və ailə həyatına hörmət hüququ) fərdləri dövlət orqanlarının əsassız müdaxiləsindən qorumaq nəzərdə tutulduğuna baxmayaraq, burada yalnız Dövlətin belə bir müdaxilədən çəkinmək öhdəliyi müəyyənləşdirilmir: bu başlıca neqativ öhdəliklə yanaşı, şəxsi və ya ailə həyatına səmərəli hörmətlə əlaqədar pozitiv öhdəliklər də ola bilər. Məhkəmə hazırki iş üzrə sözügedən qanun pozuntusu səbəbindən ikinci ərizəçiyə dəymiş zərərlə əlaqədar mülki qanunvericilikdə nəzərdə tutulmuş müdafiənin yetərsiz olduğunu müəyyən etmişdir. Burada şəxsi həyatın təməl dəyərlərinin təhlükə qarşısında qaldığı bir vəziyyət mövcuddur. Ona görə də zəruri olan səmərəli çəkindirməyə yalnız cinayət qanunvericiliyinin müddəaları ilə nail olmaq mümkün olmuşdur. Niderlandın Cinayət Məcəlləsində ikinci ərizəçinin təcrübi və səmərəli müdafiə ilə təmin edilməsi nəzərdə tutulmadığı səbəbindən Məhkəmə sözügedən cinayətin xarakterini nəzərə alaraq, onun Konvensiyanın **8-ci maddəsinin pozulmasının** qurbanı olması nəticəsinə gəlmişdir.

**Aydın Türkiyəyə qarşı**

25 sentyabr 1997-ci il

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Ərizəçi ailəsinin digər iki üzvü ilə birlikdə səbəb göstərilmədən həbs edilmiş kürd mənşəli bir türkiyəli qadındır (sözügedən dövrdə 17 yaşında). Onun əvvəlcə gözü bağlanılmış, döyülmüş, çılpaq soyundurulmuş, bir təkərin içərisinə yerləşdirilmiş və üzərinə şlanq vasitəsilə təzyiqlə su vurulmuş, təhlükəsizlik qüvvələrinin üzvü tərəfindən zorlanmış və bir saatdan sonra təxminən bir neçə nəfər tərəfindən yenə də döyülmüşdür. Əvvəllər heç bir zorlanma halı üzrə tədqiqat aparmamış bir həkim tibbi ekspertiza zamanı onun bakirəliyinin pozulduğunu və bud nahiyələrinin hər tərəfində qançırların yayıldığını müəyyən etmişdir. Ərizəçi, həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsi qarşısında şikayətini geri götürməyə məcbur etmək üçün onun ailəsinə səlahiyyətli orqanlar tərəfindən hədə-qorxu gəlindiyini və təqib olunduğunu bildirmişdir.
Məhkəmə vurğulamışdır ki, dövlət orqanlarının vəzifəli şəxsi tərəfindən tutulmuş hər hansı şəxsin zorlanması qurbanın (zərər çəkmiş şəxsin) zəifliyindən və müqavimətinin zəifləməsindən asanlıqla sui-istifadə edə biləcəyi nəzərə alınmaqla, bu, pis rəftarın xüsusilə ağır və mənfur bir forması hesab edilməlidir. Eyni zamanda, zorlanma hadisəsi qurbanda dərin psixoloji izlər qoyur ki, bu da müəyyən müddətdən sonra digər fiziki və əqli zorakılıq formalarına qarşı tez bir zamanda reaksiya vermək imkanlarını məhdudlaşdırır. Zorlama ərizəçidə fiziki və emosional pozğunluq yaradır. Məhkəmə müəyyən etmişdir ki, sözügedən ərizəçi həbsdə olduğu müddətdə ona qarşı fiziki və əqli zorakılıq, eləcə də xüsusi amansızlıqla zorlama törədilmişdir və bu, Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulması** ilə nəticələnmişdir. Bundan əlavə, həbsdə olduğu müddətdə bir şəxsin vəzifəli şəxs tərəfindən zorlanması ittihamı zərər çəkmiş şəxsin müvafiq xüsusi biliklərə malik olan müstəqil həkimlər tərəfindən müfəssəl şəkildə ekspertizasının aparılmasını tələb edir. Belə tələblərin yerinə yetirilməməsi istintaqın natamam aparılması və ərizəçinin kompensasiyadan istifadə hüququnun təmin edilməməsi ilə nəticələnmişdir və Konvensiyanın **13-cü maddəsi** (səmərəli hüquqi müdafiə vasitələri hüququ) **pozulmuşdur**.

## M.C. Bolqariyaya qarşı (Ərizə № 39272/98)

4 dekabr 2003-cü il

14 yaşlı ərizəçi (Bolqarıstanda cinsi əlaqəyə razılıq yaşı) iki nəfər tərəfindən zorlanmışdır. O, zorlandığı zaman və zorlandıqdan sonra ağlamış və daha sonra anası tərəfindən xəstəxanaya aparılmış və burada onun bakirəliyinin pozulduğu müəyyən edilmişdir. Onun müqavimət göstərdiyi və ya yardım çağırdığını müəyyən etmək mümkün olmadığı üçün təqsirləndirilən şəxslər cinayət məsuliyyətinə cəlb edilməmişlər.
Məhkəmə Konvensiyanın **3-cü** (işgəncələrin qadağan olunması) və **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulmuş olduğunu**, xüsusilə də razılıq olmadan zorlanma və cinsi zorakılığa məruz qalma faktının müəyyən edilməsində bu halları mühüm tərkib hissəsi kimi ümumi hallarla müəyyən etmişdir. Cinsi zorakılıq qurbanları, xüsusilə də gənc qızlar tez-tez psixoloji səbəblərdən (ya passiv şəkildə tabe olur və ya zorakılıq səbəbindən təcrid olunurlar) və ya növbəti zorakılıq qorxusu səbəbindən müqavimət göstərməyi bacarmırlar. Dövlətin hətta fiziki müqavimət göstərmədikdə belə, hər hansı razılıq olmayan cinsi aktı təqib etmək öhdəliyinin olduğuna baxmayaraq, Məhkəmə həm bu işin istintaqında, həm də Bolqarıstanın qanunvericiliyində boşluğun olduğunu müəyyən etmişdir.

## Maslova and Nalbandov Rusiyaya qarşı

24 yanvar 2008-ci il

Yerli polis bölməsində dindirməyə çağırılmış ərizəçi polis əməkdaşları tərəfindən qətl hadisəsində iştirakını etiraf etməyə məcbur edilmişdir. Bir polis məmuru onun barmaqlarını qandallamış, onu döymüş, zorlamış və sonra onu oral seksə məcbur etmişdir. Sonradan o, digər polis əməkdaşı ilə birgə ərizəçinin qarın nahiyəsinə zərbə vurmuş, üzünə maska taxmış, əziyyət vermək üçün havasını çıxarmış və sırğalarına naqil qoşaraq bədəninə elektrik enerjisi buraxmışlar. Tualetə getməyə icazə verildikdə ərizəçi biləklərinin damarlarını kəsməyə cəhd etmişdir.

Üç prokurorluq əməkdaşı onu polis məntəqəsində dindirdikdən sonra spirtli içki qəbul etmiş və qadını zorlamağa davam etmişlər. Ərizəçi zorlanmağa və işgəncəyə məruz qaldığına dair şikayət etmişdir. Məntəqədə tapılan istifadə olunan prezervativ onun vaginal hüceyrələrinin izlərinin olma ehtimalını 99.99% təsdiq etmişdir.
Ərizəçinin antigen qrupu ilə eyni olan və üzərində sperma izləri olan birdəfəlik istifadə üçün salfetlər və müxtəlif geyim əşyaları aşkar edilmişdir. Halbuki məhkəmə prokurorluq əməkdaşları barəsində cinayət işinin başlanması üçün xüsusi qaydaya riayət edilməməsi səbəbindən toplanmış sübutları mahiyyəti üzrə oşə baxılması üçün qəbuledilməz hesab etmişdir. Cinayət təqibinə iş üzrə sübutların olmaması əsası ilə xitam verilmişdir. Məhkəmə ərizəçinin hadisələrə dair irəli sürdüyü versiyanı dəstəkləyən inandırıcı və qəti (tamamilə aşkar) sübutlar məcmusunun (toplusunun) olduğunu qeyd etmişdir. Məhkəmə təkrar olaraq qeyd etmişdir ki, dövlətin vəzifəli şəxsi tərəfindən tutulmuş hər hansı digər şəxsin zorlanması qurbanın (zərər çəkmiş şəxsin) zəifliyindən və müqavimətinin zəifləməsindən asanlıqla sui-istifadə edə biləcəyi faktını nəzərə alınmaqla, pis rəftarın xüsusilə ağır və mənfur bir forması hesab edilməlidir. Fizikli zorakılıq, xüsusilə də ərizəçinin məruz qaldığı və təkrar zorlanma kimi qəddar əməllər işgəncə olaraq Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulması** nəticələnmişdir. Bundan başqa, səmərəsiz istintaqın aparılması ilə əlaqədar olaraq prossesual-hüquqi baxımdan Konvensiyanın **3-cü maddəsi pozulmuşdur**.

## P.M. Bolqariyaya qarşı (Ərizə № 49669/07)

24 yanvar 2012-ci il

Bu iş on üç yaşında zorlanmış ərizəçinin şikayəti ilə əlaqədardır ki, bu zorlanma faktı üzrə Bolqarıstanın səlahiyyətli orqanları tərəfindən istintaqın başa çatdırılması on beş ildən çox vaxt aparmış və səlahiyyətli orqanların təqsirləndirilən şəxslərin cinayət təqibinə məsuliyyətsiz yanaşmasına qarşı ərizəçinin heç bir hüquqi müdafiəsi olmamışdır.
Məhkəmə müəyyən etmişdir ki, işin faktlarının və cinayətkarların şəxsiyyətlərinin müəyyən edilmiş olduğuna baxmayaraq, ərizəçinin zorlanma hadisəsinə dair şikayəti üzrə istintaq səmərəsiz olmuş və prossesual-hüquqi baxımdan Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulması** baş vermişdir.

## İ.G. Moldova Respublikasına qarşı (Ərizə № 53519/07)

15 may 2012-ci il

Ərizəçi on dörd yaşında bir tanışı tərəfindən zorlandığını şikayət etmişdir (ərizəçinin tez-tez ziyarət etdiyi nənəsi ilə eyni məhəllədə yaşayan iyirmi üç yaşlı qonşu kişi). O, öz şikayəti üzrə səlahiyyətli orqanlar tərəfindən səmərəli istintaqın aparılmadığını xüsusi olaraq bildirmişdir.
Məhkəmə ərizəçinin işi üzrə zorlanma və cinsi zorakılıq hallarının bütün formalarının səmərəli istintaqı və cəzalandırılması üçün dövlətin müsbət öhdəliklərinə aid olan tələblərin yerinə yetirilmədiyi və Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulduğu** qənaətinə gəlmişdir.

## M. və digərləri İtaliyaya və Bolqariyaya qarşı (Ərizə № 40020/03)

31 iyul 2012-ci il

Roma mənşəli və Bolqarıstan vətəndaşı olan ərizəçilər iş tapmaq üçün İtaliyaya gəldikdən sonra onların qızı fiziki şəxslər tərəfindən silahla qorxudularaq saxlanmış, işləməyə və oğurluq etməyə məcbur edilmiş və bir kənddə Roma ailəsi tərəfindən cinsi zorakılığa məruz qalmışdır. Onlar, həmçinin İtaliyanın səlahiyyətli orqanlarının bu hadisələrlə bağlı müvafiq istintaq aparmadığını iddia etmişlər.
Məhkəmə ərizəçilərin **şikayətlərinin 4-cü maddə** (köləliyin və məcburi əməyin qadağan olunması) **üzrə** açıqcasına əsassızlığı səbəbindən **mahiyyəti üzrə araşdırma üçün qəbuledilməz** olduğuna dair qərar vermişdir. İnsan alverinə dair şikayəti dəstəkləyən heç bir sübut olmadığı müəyyən edilmişdir.

Halbuki İtalyanın səlahiyyətli orqanları yetkinlik yaşına çatmayan qızın saxlanıldığı villada dəfələrlə döyülməsinə və zorlanmasına dair ərizəçi valideynlərin şikayətlərinin səmərəli istintaqını aparmamışdır. Məhkəmə bu səbəbdən də Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) prossesual-hüquqi baxımdan **pozulduğu** qənaətinə gəlmişdir. Məhkəmə son olaraq, birinci ərizəçinin sərbəst buraxılması üçün İtaliyanın səlahiyyətli orqanları tərəfindən görülmüş tədbirlərə münasibətdə **3-cü maddənin pozulmadığı** qənaətinə gəlmişdir.

**P. və S. Polşaya qarşı (Ərizə № 57375/08)**

30 oktyabr 2012-ci il

Ərizəçilər bir ana və onun qızından ibarət olmuşdur. Birinci ərizəçi 2008-ci ildə on dörd yaşında zorlandıqdan sonra hamilə qalmışdır. Ərizəçilər qüvvədə olan qanunla müəyyən edilmiş şərtlər əsasında ərizəçinin abortdan vaxtında və maneəsiz istifadə etmək haqqında və işlə bağlı məlumatın ictimaiyyətə açıqlanması barədə hüquqlarını təmin edən hərtərəfli hüquqi tənzimetmənin olmadığından xüsusi olaraq şikayətlənmişlər. Onlar, həmçinin birinci ərizəçini anasının himayəsindən ayıraraq yetkinlik yaşına çatmayanların sığınacağında, daha sonra isə xəstəxanada yerləşdirilməsinin qanunsuz olduğundan şikayətlənmiş və işin hallarının qeyri-insani və ya ləyaqəti alçaldan rəftara bərabər olduğunu bildirmişlər.
Məhkəmə hər iki ərizəçiyə münasibətdə abortdan qanuni şəkildə istifadə etmək imkanının müəyyən edilməsi və fərdi məlumatların açıqlanması ilə əlaqədar Konvensiyanın **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulduğu** qənaətinə gəlmişdir. Bundan başqa, məhkəmə Konvensiyanın **5-ci maddəsinin 1-ci bəndinin** (azadlıq və toxunulmazıq hüququ) **pozulduğu** qənaətinə gəlmiş və xüsusən də birinci ərizəçinin yetkinlik yaşına çatmayanların sığınacağında yerləşdirilməsinin əsas məqsədinin onu valideynlərindən ayırmaq və aborta mane olmaqdan ibarət olduğunu müəyyən etmişdir. Nəhayət, birinci ərizəçi səlahiyyətli orqanlar tərəfindən acınacaqlı bir şəkildə müalicəyə alınmış və onun iztirabları Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmasına,** həmin maddədə qeyd olunmuş qəddarlığın minimum həddinə (səviyyəsinə) gəlib çatmışdır.

**O'Keeffe İrlandiyaya qarşı**

28 yanvar 2014-cü il (Böyük Palata)

Bu iş 1973-cü ildə İrlandiyanın Milli Məktəbində bir müəllim tərəfindən 9 yaşlı məktəbli qızın cinsi zorakılığa məruz qalması ilə əlaqədar dövlətin məsuliyyəti ilə bağlı olmuşdur. Ərizəçi məktəbli qızı zorakılıqdan qorumaq üçün və eləcə də ona qarşı pis rəftarın istintaqını aparmaq və ya müvafiq hüquqi cavab tədbiri görmək məqsədilə İrlandiya dövlətinin ibtidai təhsil sistemini qurmağı bacarmadığını şikayətində xüsusi olaraq göstərmişdir. O, həmçinin dövlətin onu qorumağı bacarmadığı üçün heç bir hüquqi təminatı və ya kompensasiya əldə edə bilmədiyini bildirmişdir.
Məhkəmə İrlandiya dövlətinin onu cinsi zorakılıqdan qoruya bilmədiyi və dövlət səviyyəsində onun hüquqi təminatı və ya kompensasiya əldə edə bilməməsi ilə əlaqədar Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) və **13-cü maddəsinin** (səmərəli hüquqi müdafiə vasitələri hüququ) **pozulduğu** qənaətinə gəlmişdir. Bundan əlavə, Məhkəmənin gəldiyi nəticəyə görə, ərizəçinin oxuduğu məktəbdə cinsi zorakılıq şikayətlərinin araşdırılması ilə əlaqədar Konvensiyanın **3-cü maddəsinin pozulmamışdır**.

**W. Sloveniyaya qarşı (Ərizə № 24125/06)**

28 yanvar 2014-cü il

Bu iş 1990-cu ilin aprel ayında 18 yaşlı bir qızın bir qrup şəxs tərəfindən zorlanması ilə əlaqədar cinayət mühakimə icraatı barəsindədir. Ərizəçi cinayət mühakimə icraatında baş vermiş uzun gecikmələrin ona qarşı törədilmiş cinayət əməllərini səmərəli şəkildə təqib etmək öhdəliyinin dövlət tərəfindən pozulduğunu şikayətində xüsusi olaraq bildirmişdir. Uzun müddət davam edən ibtidai araşdırma nəticəsində üzləşdiyi acınacaqlı vəziyyət nəzərə alınaraq milli səviyyədə ona ödənilən 5000 avro məbləğində təzminatın kifayət məbləğdə olmadığını hesab etmişdir.

Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) prosessual aspektdən **pozulduğu** qənaətinə gəlmiş və ərizəçinin zorlanmasına dair cinayət mühakimə icraatının 3-cü maddədə göstərilən prosessual tələblərə uyğun aparılmadığını müəyyən etmişdir.

**M.A. Sloveniyaya qarşı (Ərizə № 3400/07)** və **N.D. Sloveniyaya qarşı (Ərizə № 16605/09)**

15 yanvar 2015-ci il

Ərizəçilər Sloveniyanın zorlamada təqsirləndirilən kişilərə qarşı cinayət təqibi və ədalət mühakiməsinə dair effektiv sistemlə təmin edə bilmədiyindən, birinci instansiya məhkəməsinin təxminən 26 ilədək, ikinci instansiya məhkəməsinin isə doqquz ildən çox davam etdiyindən şikayət etmişlər.

Məhkəmə hər iki halda Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **prosessual aspektdən pozulması** qənaətinə gəlmiş, ərizəçilərin zorlanma ilə bağlı cinayət mühakimə icraatı zamanı 3-cü maddədə nəzərdə tutulmuş prosessual tələblərə riayət olunmadığını müəyyən etmişdir.

**S.Z. Bolqariyaya qarşı (Ərizə № 29263/12)**

3 mart 2015-ci il

Ərizəçi şikayətində ona qarşı törədilmiş qanunsuz tutulma, hücum, zorlama və insan alveri cinayətləri üzrə cinayət mühakimə icraatının səmərəsizliyini xüsusi olaraq bildirmişdir. O, həmçinin iki polis əməkdaşının bu işdə mümkün iştirakına dair istintaq hərəkətlərinin edilmədiyini, ona hücum edən şəxslərin təqib olunmadığını, eləcə də ibtidai araşdırma və məhkəmə baxışının müddətinin həddindən artıq uzadıldığını xüsusi olaraq göstərmişdir. Ərizəçi dəymiş ziyanın əvəzinin ödənilməsi tələbi ilə bağlı müraciətinə dair cinayət mühakimə icraatının həddindən artıq uzun sürdüyü üçün onun ağlabatan müddət ərzində ədalətli məhkəmə araşdırması hüququnun pozulduğunu müraciətində təsdiq etmişdir. O, son olaraq, öz şikayətinin Bolqarıstanda cinayət mühakimə icraatının səmərəsizliyi ilə əlaqədar bir sıra təkrarlanan problemlərin bariz nümunəsi olduğunu təsdiq etmişdir.

Məhkəmə ərizəçinin qanunsuz tutulması və zorlanması ilə əlaqədar istintaqın aparılması üzrə çatışmazlıqları, xüsusilə də cinayət mühakimə icraatında baş vermiş həddindən artıq gecikmələri və cinayət əməllərinin ayrı-ayrı aspektlərinin araşdırmasının aparılmamasını nəzərə alaraq Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulduğu** qənaətinə gəlmişdir. Məhkəmə ərizəçinin bu işdə qadın alveri ilə məşğul olan mütəşəkkil cinayətkar şəbəkənin mümkün iştirakına dair şikayətinin araşdırılmasının səlahiyyətli orqanlar tərəfindən zəruri hesab edilməməsini xüsusi narahatlıq doğuracaq bir hal kimi müəyyən etmişdir. Məhkəmə, həmçinin bu işdə artıq Bolqarıstana qarşı 45-dən çox qərarın çıxarıldığını öyrənmiş və səlahiyyətli orqanların səmərəli istintaq aparmaq öhdəliyini yerinə yetirmədiklərini müəyyən etmişdir. Məhkəmə təkrarlanan çatışmazlıqlar nəticəsində sistemli problemin mövcud olduğunu aşkara çıxararaq, Konvensiyanın gələcəkdə digər buna bənzər pozuntularını aradan qaldırmaq üçün praktiki baxımdan hansı ümumi tədbirlərin həyata keçirilməsinə qərar vermək məqsədilə Konvensiyanın **46-cı maddəsinin** (qərarların məcburi qüvvəsi və icrası) Avropa Şurasının Nazirlər Komitəsi ilə birgə əməkdaşlıq çərçivəsində icra öhdəliyinin Bolqarıstanın üzərinə düşdüyünü hesab etmişdir.

**İ.P. Moldova Respublikasına qarşı (Ərizə № 33708/12)**

28 aprel 2015-ci il

Ərizəçi bir ildən çox görüşdüyü bir kişi tərəfindən zorlandığını şikayət etmişdir. Ərizəçi bildirmişdir ki, Moldovanın səlahiyyətli orqanları onun zorlamaya dair şikayətini səmərəli şəkildə araşdırmamış və istintaqın qeyri-qənaətbəxş olması səbəbindən o, öz şikayəti ilə bağlı effektiv cinayət və mülki-hüquqi müdafiə vasitələrindən məhrum olmuşdur.

Məhkəmə ərizəçinin işi üzrə zorlanma və cinsi zorakılıq hallarının bütün formalarının səmərəli istintaqı və cəzalandırılması üçün dövlətin pozitiv öhdəliklərinə aid olan tələblərin

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

yerinə yetirilmədiyi və Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulduğu** qənaətinə gəlmişdir. Məhkəmə, həmçinin belə bir qənaətə gəlmişdir ki, mülki-hüquqi müdafiə vasitələrinin olmaması ilə əlaqədar ərizəçinin şikayətində də göstərildiyi kimi, Konvensiyanın **3-cü maddəsi ilə birlikdə 13-cü maddənin də** (səmərəli hüquqi müdafiə vasitələri hüququ) **pozulması** baş vermişdir.

**Y. Sloveniyaya qarşı (Ərizə № 41107/10)**

28 may 2015-ci il

Bu iş gənc bir qadının bir ailə dostuna qarşı aparılan cinayət mühakimə icraatı ilə bağlı şikayəti haqqındadır. Belə ki, qadının (ərizəçinin) məlumatına görə, o, kiçik yaşlarında həmin şəxs tərəfindən dəfələrlə cinsi zorakılığa məruz qalmış və məhkəmə prosesi çox uzun çəkmiş və onu sarsıtmışdır. Ərizəçi xüsusi olaraq bildirmişdir ki, cinsi zorakılığa dair şikayətinin verilməsi və birinci instansiya qərarının elan edilməsi yeddi il çəkmiş, iş üzrə məhkəmə baxışı əsassız olaraq gecikdirilmişdir. Bundan əlavə, o, şikayətində cinayət mühakimə icraatı zamanı onun şəxsi toxunulmazlıq hüququnun pozulduğunu və təqsirləndirilən şəxs tərəfindən çarpaz dindirmənin aparılması zamanı sarsıntı keçirdiyini xüsusi olaraq bildirmişdir.

Ərizəçi tərəfindən şikayətin verilməsi ilə birinci instansiya qərarının verilməsi arasında yeddi ildən artıq vaxt çəkməsi faktının məhkəmə prosesinin nəticəsinə zərər vurması və belə bir gecikdirilmə faktının operativlik tələblərinə cavab verə bilməməsi mülahizəsini irəli sürmək mümkün olmadığına baxmayaraq, məhkəmə Konvensiyanın **3-cü maddəsi** (işgəncələrin qadağan olunması) üzrə dövlətin prosessual öhdəliklərinin **pozulduğu** qənaətinə gəlmişdir. Məhkəmə, həmçinin Konvensiyanın **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulduğu** qənaətinə gəlmiş və ibtidai araşdırma və məhkəmə baxışı zamanı Sloveniyanın səlahiyyətli orqanlarının ərizəçinin şəxsi toxunulmazlığını qoruya bilmədiyini müəyyən etmişdir. Xüsusi olaraq, məhkəmə prosesində çarpaz dindirmə aparılarkən zorakılıqda təqsirləndirilən şəxsin təhqiramiz və ləyaqəti alçaldıcı ifadələrdən istifadə etməsinin qarşısı alınmamışdır. Səlahiyyətli orqanlar ərizəçinin növbəti sarsıntıya məruz qalmasının qarşısını almaq üçün şübhəsiz ki, bir sıra tədbirlər görmüşdür. Bununla belə, işin həssaslığını və cinsi zorakılıq hallarının baş verdiyi zaman qızın gənc yaşda olduğunu nəzərə alaraq, xüsusilə həssas yanaşma tətbiq edilməli idi. Təqsirləndirilən şəxsin özü tərəfindən çarpaz dindirmənin xarakterinə gəldikdə isə, ərizəçinin ifadəsinin həqiqətə uyğunluğunu araşdırmaq məqsədilə müdafiə vasitələrindən az istifadəyə imkan verilməsinə baxmayaraq, çarpaz dindirmədən şahidlərə qarşı hədə-qorxu və ya ləyaqəti alçaldıcı vasitələr kimi istifadə edilməməsinin vacibliyi məhkəmə tərəfindən qeyd edilmişdir.

**B.V. Belçikaya qarşı (Ərizə № 61030/08)**

2 may 2017-ci il

Ərizəçi öz iş yoldaşı tərəfindən zorlanmaya və cinsi zorakılığa məruz qalması ilə əlaqədar verdiyi şikayətinin hərtərəfli istintaqının aparılmadığını və səmərəli hüquqi müdafiə vasitələrindən istifadə edə bilmədiyini ərizəsində xüsusi olaraq göstərmişdir. Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) prosessual baxımdan **pozulması** qənaətinə gəlmişdir. Məhkəmə xüsusilə müəyyən etmişdir ki, ərizəçinin şikayəti bir qədər mübahisəlidir və bunu pis rəftarla əlaqədar hesab edərək Konvensiyanın 3-cü maddəsinin pozulması halı kimi qəbul etmək olar. Belə ki, dövlətin səmərəli istintaq aparmaq öhdəliyini nəzərə almaqla ərizəçi tərəfindən şikayət verildiyi andan dərhal sonra mümkün qədər tez bir müddətdə səlahiyyətli orqanlar zorlama və cinsi zorakılıqla bağlı halları və müvafiq faktları müəyyən etmək məqsədilə bütün mümkün imkanlardan istifadə etməli idi. Bu səbəbdən də belə hallarda istintaqın ciddi və hərtərəfli aparıldığından söhbət gedə bilməzdi.

**E.B. Rumıniyaya qarşı (Ərizə № 49089/10)**

19 mart 2019-cu il (Komitənin qərarı)

Ərizəçi şikayət etmişdir ki, Rumıniyanın səlahiyyətli orqanları onun zorlama ilə bağlı şikayətini lazımınca araşdırmamış və cinsi zorakılığa qarşı səmərəli hüquqi müdafiəni təmin etmək öhdəliyini yerinə yetirməmişlər. Ərizəçi, həmçinin bildirmişdir ki, o, hüquqi yardım və ya məsləhətlə təmin edilmədiyi və cinayət mühakimə icraatı zamanı şəxsi həyatının toxunulmazlığını pozan travmaya məruz qaldığı üçün səlahiyyətli orqanlar onu cinayətin qurbanı qismində müdafiə etməmişlər.

Məhkəmə ərizəçinin işində Konvensiyanın **3-cü** (işgəncələrin qadağan olunması) və **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulduğunu** qərara almışdır. Xüsusi olaraq bu qənaətə gəlinmişdir ki, Rumıniyanın səlahiyyətli orqanları lazımi araşdırma aparmayıb və ərizəçinin zorakılıq törədən şəxsə müqavimət göstərməməsi faktına həddindən artıq önəm veriblər. Bundan əlavə, onun yüngül dərəcəli əqli zəifliyi olduğuna görə araşdırma həssaslıqla aparılmalı idi, amma belə olmamışdı. Məhkəmə, həmçinin hesab etmişdir ki, səlahiyyətli orqanların yanaşması ərizəçinin zorakılıq qurbanı qismində hüquqlarını pozmuş, cinsi cinayətlərin səmərəli şəkildə araşdırılması və təqsirkarların cəzalandırılması məqsədini daşıyan daxili qanunvericiliyin bu məqsədini əhəmiyyətsiz etmiş, eləcə də Rumıniya dövlətinin beynəlxalq öhdəlikləri əsasında qurduğu sistemlə bağlı şübhələr yaratmışdır.

## E.G. Moldova Respublikasına qarşı (Ərizə № 37882/13)

13 aprel 2021-ci il

Bu iş ərizəçiyə qarşı baş vermiş cinsi zorakılıqla, xüsusən üç təcavüzkardan birinə verilən cəzanın icra edilməməsi ilə əlaqədar idi. Səlahiyyətli orqanlar tərəfindən axtarışda olduğu müddətdə sözügedən təcavüzkara amnistiya verilmiş və o, heç vaxt cəzasını çəkməmişdi. Bu amnistiyadan yararlanmaq imkanı sonradan ləğv edilmişdi. Lakin onun amnistiyadan yararlandığı təqribən bir illik müddət onun amnistiyanın ləğvindən bir qədər əvvəl ölkəni tərk etməsinə imkan yaratmışdı. Ərizəçi iddia etmişdir ki, dövlət bu üçüncü hüquqpozan barəsində çıxarılmış hökmün səmərəli icrasını təmin etməkdən ibarət pozitiv öhdəliklərini yerinə yetirməmişdir.

Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan olunması) **və 8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulduğunu** qərara alaraq hesab etmişdir ki, ərizəçiyə qarşı cinsi zorakılıq onun bədən xəsarətlərindən və ruhi əzablardan müdafiə hüququnun ciddi pozuntusunu təşkil etmişdir. Ərizəçinin işində Məhkəmə müəyyən etmişdir ki, üçüncü hüquqpozanın cəzasının icrası üçün dövlət tərəfindən görülən tədbirlər dövlətin cinsi zorakılıq törədənlərə qarşı çıxarılmış cinayət hökmlərini icra etmək öhdəliyi fonunda yetərli olmamışdır. Cinayət törətmiş şəxsə amnistiya verilməsi və səlahiyyətli orqanların onun cəzasını icra etməməsi Moldova dövlətinin Konvensiyanın 3-cü və 8-ci maddələri üzrə üzərinə götürdüyü pozitiv öhdəliklərə zidd idi.

## J.L. İtaliyaya qarşı (Ərizə № 5671/16)

27 may 2021-ci il

Bu iş ərizəçini qrup şəklində zorlamaqda ittiham olunmuş və İtaliya məhkəmələri tərəfindən bəraət almış yeddi kişi barəsində cinayət işi ilə əlaqədar idi.

Ərizəçi konkret olaraq şikayət etmişdir ki, səlahiyyətli milli orqanlar cinayət prosesi kontekstində onun şəxsi həyatına hörmət və şəxsi həyatının toxunulmazlığı hüququnu qorumayıblar.

Məhkəmə Konvensiyanın **8-ci maddəsinin** (şəxsi və ailə həyatına hörmət hüququ) **pozulduğunu** qərara almış və konkret olaraq müəyyən etmişdir ki, Apellyasiya Məhkəməsinin qərarının mətnini nəzərə alsaq, ərizəçinin 8-ci maddədə nəzərdə tutulan hüquq və mənafeləri adekvat şəkildə qorunmamışdır. Konkret olaraq əməlin ictimai xarakteri baxımından qərarın məzmununun çox mühüm rol oynadığı bütün məhkəmə prosesi ərzində səlahiyyətli milli orqanlar ərizəçini ikinci dərəcəli viktimizasiyadan müdafiə etməmişlər. Digər məqamlarla yanaşı, Məhkəmə ərizəçinin biseksuallığı, münasibətləri və sözügedən hadisələrdən əvvəl təsadüfi cinsi əlaqələri ilə bağlı şərhləri əsassız hesab etmiş və müəyyən etmişdir ki, Apellyasiya Məhkəməsinin istifadə etdiyi ifadələr və arqumentlər

İtaliya cəmiyyətində qadınların rolu ilə bağlı mövcud olan qərəzli fikirləri əks etdirir və qanunvericilik bazasının qənaətbəxş olmasına baxmayaraq gender əsaslı zorakılıq qurbanlarının hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsinə mane ola bilər. Məhkəmə əmindir ki, cinayət təqibi və sanksiyalar gender əsaslı zorakılığa institusional reaksiya göstərilməsində və gender bərabərsizliyi ilə mübarizədə mühüm rol oynayır.Ona görə də məhkəmə orqanlarının məhkəmə qərarlarında cinsiyyətçi stereotipləri təkrarlamaqdan, gender əsaslı zorakılığa qarşı mübarizənin əhəmiyyətini aşağı salmaqdan və qurbanların ədalət mühakiməsi sisteminə inamını sarsıda bilən təqsirləndirici və mühakiməedici xarakterli şərhlər verməklə qadınları ikinci dərəcəli viktimizasiyaya məruz qoymaqdan çəkinmələri vacibdir.

## J.I. Xorvatiyaya qarşı (Ərizə № 35898/16)

8 sentyabr 2022-ci il

Bu iş zorlama qurbanının belə bir şikayəti ilə əlaqədar idi ki, səlahiyyətli orqanlar onu zorlamış atasının həbsxanadan məzuniyyətə buraxıldığı zaman onu öldürməklə hədələdiyi barədə qurbanın şikayətini ciddi qəbul etməmişlər. Ərizəçi konkret olaraq iddia etmişdir ki, səlahiyyətli orqanlar onu zorlayanın hədə-qorxusundan və ikinci dərəcəli viktimizasiyadan[1] (təkrarən qurbana çevrilməkdən) qorumamış və ölüm təhdidləri ilə bağlı səmərəli araşdırma aparmamışlar. O, həmçinin bildirmişdir ki, onun iddiaları qaraçı etnik mənsubiyyəti səbəbindən ciddi qəbul edilməmişdir.

Məhkəmə ərizəçinin şikayəti üzrə səmərəli araşdırma aparılmadığına görə onun işində Konvensiyanın **3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan olunması) **pozulduğunu** qərara almış və konkret olaraq müəyyən etmişdir ki, ərizəçi onu zorlayan şəxs tərəfindən onun həyatı üçün ciddi təhlükə olması barədə üç dəfə polisə məlumat versə də, onlar nəinki cinayət təqibini aparmayıblar, heç cinayət işinin başlanmasına dair qərar da qəbul etməyiblər. Məhkəmə, həmçinin qeyd etmişdir ki, səlahiyyətli orqanlar ərizəçinin qaraçı qadın və ciddi cinsi cinayətlərin qurbanı kimi xüsusilə həssas durumda olduğunu yaxşı bilirdilər. Ona görə də Məhkəmə bu qənaətə gəlmişdir ki, onlar zorakı şəxsin yaratdığı təhlükədən, eləcə də onun hədə-qorxusundan, qisasından və ikinci dərəcəli viktimizasiyadan ərizəçini qorumaq üçün vəziyyətə dərhal və səmərəli reaksiya verməli idilər.

## Vučković Xorvatiyaya qarşı

12 dekabr 2023-cü il[2]

Bu iş tibb bacısı olan ərizəçinin iş növbəsində birlikdə işləyərkən təcili yardım sürücüsü olan həmkarı tərəfindən məruz qaldığı cinsi zorakılıqlarla əlaqədar idi. Ona qarşı zorakılıq etmiş şəxs 10 ay azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş, lakin apellyasiya şikayəti nəticəsində bu cəza ictimai işlərlə əvəz olunmuşdu. Ərizəçi iş yoldaşının cəzasının yüngülləşdirilməsindən şikayət etmiş və bildirmişdir ki, törədilmiş cinayətlərin ciddiliyini nəzərə alsaq, cəza qeyri-mütənasib şəkildə yüngülləşdirilmişdir.

Məhkəmə Konvensiyanın **3-cü** (qeyri-insani və ləyaqəti alçaldan rəftarın qadağan olunması) **və 8-ci** (şəxsi və ailə həyatına hörmət hüququ) **maddələrinin pozulduğunu**, Xorvatiya dövlətinin ərizəçinin iş yerində dəfələrlə məruz qaldığı cinsi zorakılıqla bağlı lazımi tədbir görmədiyini müəyyən etmişdir. Konkret olaraq, Məhkəmə müəyyən etmişdir ki, apellyasiya instansiyası məhkəməsi adekvat səbəblər göstərmədən və ya hər hansı şəkildə zərərçəkmiş şəxsin maraqlarını nəzərə almadan azadlıqdan məhrumetmə cəzasını ictimai işlərlə əvəz etməyi qərara almışdır. Belə yanaşma Xorvatiya məhkəmələrinin qadınlara qarşı zorakılığı cəzalandırmaqda yumşaq davrandığını göstərir.

[1] Bu hüquqi termin "eyni şəxsin müəyyən müddət ərzində birdən çox cinayət hadisəsindən zərər çəkdiyi situasiyanı" bildirir (Cinayət qurbanlarına yardıma dair Avropa Şurası Nazirlər Komitəsinin Rec(2006)8 saylı Tövsiyəsi).

[2] Bu qərar İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 44-cü maddəsinin 2-ci bəndində (qəti qərarlar) nəzərdə tutulan hallarda qüvvəyə minəcək.

# Ölkədən çıxarılaraq öz ölkəsinə göndərildikdə pis rəftar təhlükəsi

## Qadın sünnəti

### Kollins və Akaziebie İsveçə qarşı

8 mart 2007-ci il (qəbuledilənlik barədə qərar)

Ərizəçilər Nigeriya vətəndaşı olan bir ana və onun qızıdır. Onların müraciətinə görə, Nigeriyaya qaytarıldıqları təqdirdə sünnət olunacaqlar və bu, Konvensiyanın 3-cü maddəsinin (işgəncələrin qadağan olunması) pozulması ilə nəticələnəcəkdir. İsveç Miqrasiya İdarəsi onların sığınacaq, qaçqın statusu və ya yaşayış icazəsinə dair müraciətlərini rədd edərək digər məsələlərlə yanaşı, qadınların sünnət edilməsi halının Nigeriyada qanunla qadağan olunduğunu və sözügedən qadağanın Nigeriyanın ən az altı ştatında müşahidə olunduğunu göstərmişdir. Beləliklə, əgər ərizəçilər bu ştatlardan birinə qayıtsalar, onların sünnətə məruz qalacaqlarına inanmaq ehtimalı yoxdur. Ərizəçilərin müraciətləri uğursuz nəticələnmiş və qadın sünnətinə qarşı qanunvericiliyin mövcudluğu məsələsinin təkidlə qeyd olunduğuna baxmayaraq, bu hal heç zaman təqib edilməmiş və ya cəzalandırılmamışdır.

Məhkəmə ərizəçilərin Nigeriyaya qayıtdıqdan sonra qadın sünnətinə məruz qalması üçün real və konkret bir təhlükə ilə qarşılaşacaqlarını sübut edə bilmədiklərinə görə şikayətin açıqcasına əsassız olmasını səbəb göstərərək işin **mahiyyəti üzrə araşdırma üçün qəbuledilməz** olduğunu bəyan etmişdir. Eyni zamanda, hər hansı bir qadının sünnətə məruz qalması halı pis rəftara gətirib çıxardığı üçün bu hal Konvensiyanın 3-cü maddəsinin (işgəncələrin qadağan olunması) pozulması hesab edilir. Buna baxmayaraq, nigeriyalı qadınlar ənənəvi olaraq hələ də qadın sünnətinə məruz qalmaqdadırlar. Halbuki Nigeriyanın bir neçə ştatında, o cümlədən ərizəçilərin yaşadığı ştatda qadınların sünnəti qanunla qadağan edilmişdir. Bundan əlavə, birinci ərizəçi hamiləlik dövründə öz ailəsindən kömək və dəstək almaq imkanı olan Nigeriya daxilində digər ştata və ya qonşu ölkəyə getmək seçimini etməmişdir. Bunun əvəzinə o, əhəmiyyətli səviyyədə qüvvə və müstəqillik nümayiş etdirərək İsveçə səfər etmək üçün lazımi praktiki və maliyyə imkanlarını əldə etmək imkanına nail olmuşdur. İşə bu perspektivdən yanaşdıqda, onun öz ştatında olmasa da belə, ən azı Nigeriyanın qadın sünnəti qadağan edilmiş, yaxud az yayılmış digər ştatlarının birində qızını qadın sünnətindən qorumaq imkanına sahib olmama səbəbini başa düşmək çətin olmuşdur.

### Izevbekhai İrlandiyaya qarşı

17 may 2011-ci il (şikayətin qəbuledilənliyi məsələsinə dair qərardad)

Ərizəçi və iki qızı iddia edirdilər ki, ailə Nigeriyaya qaytarılacağı təqdirdə qızlar qadın sünnəti riski ilə üzləşəcəklər. Onlar iddia bildirirdilər ki, ananın böyük qızı bir yaşında "yaşlı" şəxs tərəfindən qadın sünnətinə məruz qalarkən qanaxmadan dünyasını dəyişib. Ailə iki kiçik qıza qadın sünnəti etdirmək üçün atalarının ailəsinin təzyiqi qarşısında Nigeriyadan İrlandiyaya getmişdi. Onların sığınacaq istəməsi uğursuzluqla nəticələnmişdi.

Məhkəmə ərizəni açıq-aydın əsassız olduğu üçün **qəbuledilməz** elan etmiş və konkret olaraq müəyyən etmişdir ki, böyük qızın doğulması və ölümü ilə bağlı irəli sürülən iddialara şübhə etmək üçün ciddi əsaslar vardır. Həm də ailə Nigeriyada maddi və sosial baxımdan imtiyazlı vəziyyətdə idi. Birinci ərizəçi təhsilli mütəxəssis idi və onun əri və valideynləri qadın sünnətinin əleyhinə idilər. Onun özü və ya ərin tərəfindən qızlarına və qadın sünnətinə dair hər hansı problemləri polisə bildirmək, kömək istəmək və ya qadın sünnətinin sayının əhəmiyyətli dərəcədə aşağı və ya nadir olduğu Nigeriyanın şimalına köçmək cəhdi olmamışdı. Buna görə də Məhkəmə hesab etmişdir ki, ərizəçi və əri Nigeriyaya qaytarılacağı təqdirdə qızlarını qadın sünnətindən qoruya bilərlər.

**Omeredo Avstriyaya qarşı**

20 sentyabr 2011-ci il (qəbuledilənlik barədə qərar)

1973-cü il təvəllüdlü ərizəçi qadın sünnətindən yaxa qurtarmaq üçün 2003-cü ildə Nigeriyaya qaçmışdır. O, bacısının sözügedən əməlin fəsadları nəticəsində artıq öldüyünü bildirmiş və rədd edəcəyi təqdirdə kəndlilər tərəfindən onu öldürmək təhlükəsinin olduğunu və buna görə də anasının qızına razılaşmağı tələb etdiyini bildirmişdir. Onun sığınacaq tələbi uğursuz olmuşdur.

Məhkəmə müraciətin açıqcasına əsassız olduğunu qeyd edərək işi **mahiyyəti üzrə araşdırma üçün qəbuledilməz** hesab etmişdir. Buna baxmayaraq, hər hansı bir şəxsin, uşağın və ya yaşlı şəxsin sünnətə məruz qalması halının pis rəftara gətirib çıxardığı üçün bu hal Konvensiyanın 3-cü maddəsinin (işgəncələrin qadağan olunması) pozulması kimi qəbul olunur. Halbuki Məhkəmə qeyd etmişdir ki, yerli səlahiyyətli orqanlar ərizəçinin Nigeriyada zorla qadın sünnətinə məcbur edilmə qorxusunu ətraflı təsbit etdikdən sonra ölkə daxilində alternativ uçuşlardan istifadə etməkdən imtina etdiyi faktını irəli sürmüşlər. Ona görə də Məhkəmə ərizəçinin Nigeriyadakı şəxsi vəziyyətini qiymətləndirməli olmuşdur. Bu baxımdan, Məhkəmə ərizəçinin dərzi kimi təhsil və iş təcrübəsini nəzərə alaraq ailənin dəstəyinə güvənmədən Nigeriyada öz həyatını qura biləcəyinə inanmaq üçün bir səbəb olduğunu müəyyənləşdirmişdir.

**Sou Belçikaya qarşı**

19 yanvar 2016-cı il

Ərizəçi şikayətində Belçikadan çıxarılaraq mənşə ölkəsi Qvineyaya göndərildiyi halda növbəti eksizasiya proseduruna məruz qalmaq təhlükəsinin olduğunu və onun şikayəti ilə əlaqədar heç bir səmərəli hüquqi müdafiə vasitələrinin olmadığını bildirmişdir.

Məhkəmə ərizəçinin çıxarılaraq mənşə ölkəsinə göndərildiyi halda Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmayacağı** qənaətinə gəlmiş və sözügedən ölkəyə göndərildiyi təqdirdə növbəti eksizasiya proseduruna məruz qalmaq təhlükəsinin olmayacağını müəyyən etmişdir. Məhkəmə, həmçinin Konvensiyanın **3-cü maddəsi ilə birlikdə 13-cü maddəsinin** (səmərəli hüquqi müdafiə vasitələri hüququ) **pozulmadığı** qənaətinə gəlmişdir.

**Bangura Belçikaya qarşı**

14 iyun 2016-cı il (şikayətin siyahıdan çıxarılması barədə qərar)

Bu işdə ərizəçi mənşə ölkəsi Sierra Leoneyə qaytarıldığı təqdirdə qadın sünnətinə məruz qalacağını bildirmişdir.

2016-cı ilin yanvar ayında ərizəçinin arvadı ilə ailənin yenidən birləşməsinə dair müraciəti əsasında yaşayış icazəsi almış olduğunu xüsusi qeyd edərək, bu səbəbdən də onun ölkədən çıxarılıb Sierra Leoneyə göndərilməsi üçün xeyli müddət qaldığından və buna heç bir təhlükə olmadığından Konvensiyanın 37-ci maddəsinə (şikayətlərin siyahıdan çıxarılması) uyğun olaraq Məhkəmə **şikayətin siyahıdan çıxarılmasını qərara almışdır**.

## Ailə tərəfindən namus cinayəti və pis rəftar

**A.A. və digərləri İsveçə qarşı (Ərizə № 14499/09)**

28 iyun 2012-ci il

Bu iş İsveçdə yaşayan Yəmən vətəndaşlarının (bir ana və beş uşağı) icrada olan deportasiya orderi barəsində olmuşdur. Onların şikayətinə görə, əgər Yəmənə deportasiya edilərlərsə, ərinə/atasına itaət etmədikləri və ölkələrini onun icazəsi olmadan tərk etdikləri üçün namus cinayətinin qurbanlarına çevrilmək təhlükəsi ilə qarşılaşacaqlar. İsveç məhkəmələri ərizəçinin ailəsinin problemlərinin namusdan daha çox maliyyə məsələləri ilə əlaqəli və əsasən şəxsi zəmində olduğunu hesab etmişdir.

Məhkəmə hazırki işdə ərizəçilərin Yəmənə deportasiya edildiyi halda qətl və ya qeyri-insani və ya ləyaqəti alçaldan rəftara məruz qalması üçün real təhlükənin baş

verəcəyini əsaslandıran tutarlı dəlillərin olmadığını müəyyən edərək ərizəçilərə qarşı **deportasiya orderinin icrasının** zəruri olduğu qənaətinə gəlmiş və qeyd etmişdir ki, bu hal **Konvensiyanın 2-ci maddəsinin** (yaşamaq hüququ) **və ya 3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) pozulmasına səbəb olmayacaqdır.

### R.D. Fransaya qarşı (ərizə № 34648/14)

16 iyun 2016-cı il

Bu iş ərizəçinin mənşə ölkəsi olan Qvineyaya deportasiyası proseduruna aid idi. Xristiana ərə getmiş ərizəçi müsəlman atası və qardaşları tərəfindən hər cür şiddətli repressiyalara məruz qalmışdı. Ərizəçi konkret olaraq iddia etmişdir ki, onun Qvineyaya deportasiyasının həyata keçirilməsi onu pis rəftar riskinə məruz qoyacaq.

Məhkəmə qərara almışdır ki, ərizəçinin Qvineyaya **deportasiyası Konvensiyanın 3-cü maddəsinin** (qeyri-insani və ya ləyaqəti alçaldan rəftarın qadağan olunması) **pozuntusunu təşkil edəcək**, çünki onun bu maddəyə zidd olan rəftara məruz qalacağına dair real risk mövcuddur. Məhkəmə konkret olaraq qeyd etmişdir ki, ərizəçi iddia edilən riskin inandırıcı olduğunu təsdiqləyən məzmunda sənədlər təqdim etmişdir və onun məruz qalmaqdan qorxduğu rəftar ailəsinin hərəkətlərindən qaynaqlanmışdır. Eyni zamanda, bu məsələ ilə bağlı Fransa dövləti tərəfindən şübhə altına alınmayan ərizəçinin məlumatları göstərirdi ki, hətta o, Konakridən kənara köçsə belə, ailəsinin onu tapmaq üçün vəsaiti var. Nəhayət, Məhkəmə hesab etmişdir ki, vaxtın keçməsinin ərizəçinin işində pis rəftar riskini azaltması ehtimalı azdır.

## İnsan alveri və ya təkrar insan alveri təhlükəsi

### L.R. Birləşmiş Krallığa qarşı (Ərizə № 49113/09)

14 iyun 2011-ci il (şikayətin siyahıdan çıxarılması barədə qərar)

Ərizəçi bildirmişdir ki, o, albaniyalı bir kişi tərəfindən insan qaçaqmalçılığı yolu ilə İtaliyadan Birləşmiş Krallığa gətirilmiş, həmin şəxs onu bir gecə klubunda fahişəliyə məcbur etmiş və oradan əldə etdiyi bütün pullarını əlindən almışdır. Qadın qaçıb canını qurtararaq gizli sığınacaqda yaşamağa başlamışdır. O, iddia etmişdir ki, Birləşmiş Krallıqdan çıxarılaraq Albaniyaya göndərilməsi Konvensiyanın aşağıdakı maddələrinə zidd olaraq onunla pis rəftar təhlükəsinə gətirib çıxara bilər: Maddə 2 (yaşamaq hüququ), Maddə 3 (işgəncələrin qadağan olunması), Maddə 4 (köləliyin və məcburi əməyin qadağan olunması) və Maddə 8 (şəxsi həyata və ailə həyatına hörmət hüququ).

Məhkəmə ərizəçiyə və qızına Birləşmiş Krallıqda qaçqın statusu verildiyini və onların bu ölkədən çıxarılaraq Albaniyaya göndərilməsinə dair heç bir təhlükənin mövcud olmadığını müəyyən etdikdən sonra Konvensiyanın 37-ci maddəsinə (şikayətlərin siyahıdan çıxarılması) uyğun olaraq **şikayəti siyahıdan çıxarmaq qərarını vermişdir.** Hökumət də ərizəçiyə onun çəkdiyi hüquqi xərclər üçün müəyyən bir məbləği ödəməyi öhdəsinə götürmüşdür.

### V.F. Fransaya qarşı (Ərizə № 7196/10)

28 noyabr 2011-ci il (qəbuledilənlik barədə qərar)

Bu iş ərizəçinin mənşə ölkəsi Nigeriyaya deportasiyasına dair icraat barəsindədir. Ərizəçi xüsusi olaraq bildirmişdir ki, əgər o, ölkədən qovularaq Nigeriyaya göndərilərsə, qaçıb canını qurtarmış olduğu fahişəliyə geri qayıtmaq təhlükəsi ilə üzləşəcək, sözügedən şəxslərin təzyiq tədbirlərinə (qisasına) məruz qalacaq və Nigeriyanın səlahiyyətli orqanları onu qoruya bilməyəcək. Onun fikrincə, Fransanın səlahiyyətli orqanlarının vəzifəsi insan alverinin potensial qurbanlarını ölkədən çıxarmamaqdır.

Məhkəmə şikayətin açıq-aşkar əsassız olduğu üçün onu **mahiyyəti üzrə araşdırma üçün qəbuledilməz** hesab etmişdir.

Nigeriyalı qadınların Fransada insan alverinin miqyası barədə və mühafizə əldə etmək məqsədilə səlahiyyətli orqanlara məlumat verilməsində qadınların üzləşdiyi çətinliklər barəsində geniş məlumatın mövcud olduğuna baxmayaraq, ərizəçinin deportasiyası barədə qərar verildiyi zaman sözügedən iş üzrə ərizəçinin insan alveri şəbəkəsinin qurbanı olduğuna dair polisin məlumatı olduğunu və ya belə bir məlumatın mütləq şəkildə olmasını sübut edən kifayət qədər sübut mövcud olmamışdır. Ərizəçinin Nigeriyada fahişəlik şəbəkəsinə qayıtmaq məcburiyyətində qalmaq təhlükəsi ilə əlaqədar olaraq Məhkəmə müəyyən etmişdir ki, fahişəliyin qarşısının alınması və sözügedən şəbəkələrə qarşı mübarizə haqqında Nigeriya qanunvericiliyi məqsədlərinə tam olmasa da, bu sahədə ciddi irəliləyişlər baş vermiş və ərizəçi qayıtdıqdan sonra yəqin ki, bu sahədə yardım alacaq.

*Həmçinin bax*: ***İdemugia Fransaya qarşı***, 27 mart 2012-ci il tarixli qəbuledilənlik barədə qərar

### F.A. Birləşmiş Krallığa qarşı (Ərizə № 20658/11)

10 sentyabr 2013-cü il (qəbuledilənlik barədə qərar)

Qana vətəndaşı olan ərizəçi insan qaçaqmalçılığı yolu ilə Birləşmiş Krallığa gətirilməsi və fahişəliyə məcbur olunması ilə bağlı şikayət irəli sürmüşdür. O, Qanaya qaytarıldıqdan sonra əvvəlki insan alverçilərinin və ya yeni insan qaçaqmalçılarının əllərinə düşəcəyi təhlükəsinin olduğunu şikayətində xüsusi olaraq göstərmişdir. O, Birləşmiş Krallıqda olduğu müddətdə insan alveri və cinsi zorakılığın birbaşa nəticəsi HİV-ə yoluxmuş, dövlətin isə lazımi tibbi müalicə almaq üçün onun Birləşmiş Krallıqda qalmasını təmin etmək üzrə pozitiv öhdəliyi vardır.

Məhkəmə Konvensiyanın 3-cü (işgəncələrin qadağan olunması) və 4-cü maddəsinə (köləliyin və məcburi əməyin qadağan olunması) əsasən, ərizəçinin şikayətinin **mahiyyəti üzrə araşdırma üçün qəbuledilməz** olduğunu elan etmişdir. Məhkəmə ərizəçinin bütün şikayətləri üzrə Yüksək Tribunala müraciət (apellyasiya) vermək hüququnun olduğunu xüsusi şəkildə qeyd etmişdir. Yüksək Tribunala apellyasiya üçün icazəyə dair müraciət etmədiyi üçün o, Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndinin (qəbuledilənlik meyarları) tələblərinə cavab verməmişdir.

### O.G.O. Birləşmiş Krallığa qarşı (Ərizə № 13950/12)

18 fevral 2014-cü il (şikayətin siyahıdan çıxarılması barədə qərar)

Nigeriya vətəndaşı olan və insan alveri qurbanı olduğunu iddia edən ərizəçi ölkədən çıxarılaraq Nigeriyaya göndərildiyi təqdirdə onun yenidən insan alveri təhlükəsi ilə üzləşəcəyi ilə bağlı şikayət etmişdir.

Məhkəmə ərizəçiyə Birləşmiş Krallıqda qaçqın və orada qeyri-müəyyən müddətədək qalmaq statusunun verildiyini qeyd edərək Konvensiyanın 37-ci maddəsinə müvafiq qaydada **şikayətin işlərin siyahısından çıxarılması barədə qərar vermişdir**. Bundan əlavə, Birləşmiş Krallığın səlahiyyətli orqanları ərizəçinin insan alverinin qurbanı olduğunu təsdiq etmişlər.

## Sosial təcrid

### N. İsveçə qarşı (Ərizə № 23505/09)

20 iyul 2010-cu il

İsveçdə bir kişi ilə qeyri-rəsmi nikahda yaşayan evli əfqan qadını Əfqanıstana qayıtdığı təqdirdə sosial izolyasiya, uzunmüddətə azadlıqdan məhrum etmə, hətta ölüm cəzasının tətbiqi təhlükəsi ilə üzləşəcəyini bildirmişdir. Onun sığınacaq üçün müraciətləri uğursuz olmuşdur.

Məhkəmə ərizəçinin İsveçdən Əfqanıstana **deportasiyasının** Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmasına səbəb olacağını** müəyyən etmişdir.

Qeyd edilmişdir ki, Əfqanıstanda qadınlar cəmiyyətin, adət-ənənələrin, eləcə də hüquq sisteminin onlar üçün müəyyən etdiyi gender rollarına qarşı çıxdığı təqdirdə xüsusilə pis rəftara məruz qalırlar. Ərizəçinin İsveçdəki yaşadığı sadə bir fakt onun qəbul edilmiş davranış xəttini keçmiş olduğu kimi qəbul edilə bilərdi. Ərindən boşanmaq istəməsi və onunla daha yaşamaq istəməməsi faktı ağır həyati təhlükələrlə nəticələnə bilərdi. 2009-cu ilin aprel ayında qəbul edilmiş Şiələrin Şəxsi Statusu Aktında qadınların ərlərinin cinsi tələblərinə itaət etmələri və icazə almadan evi tərk etməmələri tələb olunmuşdur. Hesabatlarda, həmçinin göstərilmişdir ki, əfqanıstanlı qadınların təxminən 80%-i məişət zorakılığına məruz qalmış, belə hərəkətləri səlahiyyətli orqanlar qanuni hesab etmiş və bu səbəbdən də təqib etməmişdir. Ərsiz və ya kişi "tərbiyəçisi" olmayan qadınlar şəxsi və ya peşə həyatında davamlı olaraq ciddi məhdudiyyətlərlə üzləşmiş və sosial izolyasiyaya məhkum edilmişlər. Bir kişi qohumu tərəfindən müdafiə edilmədiyi təqdirdə onların çox vaxt həyatda sağ qalmaq vasitələrindən məhrum olduqları üzə çıxmışdır. Hazırki işin xüsusi hallarında Əfqanıstana deportasiya edildikdə ərizəçinin əri, ailəsi, ərinin ailəsi və əfqan cəmiyyətindən müxtəlif və çoxsaylı təzyiq tədbirləri (qisas) təhlükələrinə məruz qalacağına inanmaq üçün tutarlı əsaslar var idi ki, bu da Konvensiyanın 3-cü maddəsinin 1-ci bəndinin tənzimetmə dairəsinə düşür.

**V.H. İsveçə qarşı (Ərizə № 49341/10)**

8 aprel 2015-ci il (Böyük Palata)

Bu iş Mandaean adlı həssas etnik/dini azlıqdan çıxmış və sığınacaq axtaran subay bir qadın barəsindədir ki, o, İsveçdən çıxarılaraq İraqa göndəriləcəyi təqdirdə pis rəftara məruz qalacağını bildirmişdir. Ərizəçi təsdiq etmişdir ki, həssas etnik/dini azlığa aid boşanan bir qadın İraqa qayıdarsa, o, qeyri-insani və ləyaqəti alçaldan rəftara məruz qalmaq kimi real təhlükə ilə üzləşəcəkdir. O, İraqdakı bir kişi şəbəkəsi və ya qalan qohumları olmadan təqib, zorakılıq, zorlama, başqa bir dini məcburi qəbul etdirmə və zorla ərə vermə təhlükələri ilə qaşılaşacağını öz şikayətində xüsusi olaraq bildirmişdir.

Məhkəmə Miqrasiya İdarəsinin qərarı ilə 15 oktyabr 2014-cü il tarixində ərizəçiyə ölkədə yaşayış icazəsi verildiyini öyrənmişdir. İdarə müəyyən etmişdir ki, ərizəçinin dini azlıqlara mənsub olması və İraqda hər hansı bir sosial şəbəkəsinin qalmaması faktına uyğun olaraq Bağdadda baş verən ümumi təhlükəsizlik vəziyyəti qadının İsveçdə mühafizəyə ehtiyacının olduğunu göstərir. Bu qərardan sonra ərizəçi artıq Avropa Məhkəməsində müraciətinə baxılması arzusunda olmadığını bildirmişdir. Məhkəmə bu səbəbdən məsələnin milli səviyyədə həll edildiyini hesab etmişdir. Məhkəmə tərəfindən ərizəçinin şikayətinə baxılmasına davam etmək barədə Avropa Konvensiyasında və onun Protokollarında insan hüquqlarına hörmətlə bağlı müəyyən edilmiş heç bir xüsusi hal aşkar edilməmişdir. Bu səbəbdən də **ərizəçinin şikayətinin Məhkəmənin şikayətlər siyahısından çıxarılması qərara alınmışdır.**

**R.H. İsveçə qarşı (Ərizə № 4601/14)**

10 sentyabr 2015-ci il

Somaliya vətəndaşı olan ərizəçi qadın ölkədən çıxarılaraq Moqadişuya göndərildiyi təqdirdə Somalidən qaçmazdan əvvəl zorla ərə getməyi qəbul etmədiyinə görə əmiləri (dayıları) tərəfindən real öldürülmə təhlükəsi qarşısında və ya iradəsinin əleyhinə olaraq yenidən zorla ərə getmək məcburiyyətində qalacağını bildirmişdir. O, həmçinin Somalidə qadınlar üçün xüsusilə də onun kimiləri – kişi şəbəkəsi olmayan və buna görə də daha zəif olan insanlar üçün ümumi vəziyyətin olduqca çətin olduğunu təsdiq etmişdir.

Məhkəmə ərizəçinin Moqadişuya **deportasiyasının** Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulmasına gətirib çıxaracağı** qənaətinə gəlmişdir. Somalidə, o cümlədən Moqadişuda qadınların çətin vəziyyətinə diqqət yetirdikdə, Məhkəmə ərizəçinin həmin şəhərə qayıtdığı təqdirdə 3-cü maddənin əleyhinə olaraq real təhlükə ilə üzləşəcəyinə dair xüsusi faktları tapa bilməmişdir.

Qadının yazılı müraciətlərində xeyli ziddiyyətli məqamlar (uyğunsuzluqlar) olmuş, onun şəxsi təcrübələrinə və qayıtdıqdan sonrakı üzləşəcəyi təhlükələrə dair təqdim etdiyi məlumatlar həqiqətəuyğun görünməmişdir.

Moqadişuya tənha qadın kimi dönəcəyi təqdirdə belə bir vəziyyətdə təhlükələrlə qarşılaşacağını müəyyən etmək üçün isə heç bir əsas yox idi. Əksinə, onun həm ailənin dəstəyinə, həm də kişilərin qorunma şəbəkəsinə çıxışının olması nəzərdə tutulmuşdur. Qaçqınlar və məcburi köçkünlər düşərgəsində yaşamaq üçün müraciət etmək məcburiyyətində qalacağı da göstərilməmişdir.

## İnsan alveri[2]

**Rantsev Kipr və Rusiyaya qarşı**

7 yanvar 2010-cu il

Ərizəçi Kiprə 2001-ci ilin mart ayında işləmək üçün gedən bir gənc qadının atası olmuşdur. O, şikayətində bildirmişdir ki, Kipr polisi qızını sağ ikən insan alverçilərindən qorumaq və onun ölümündə təqsiri olan şəxsləri cəzalandırmaq üçün heç bir tədbir görməmişdir. Ərizəçi, həmçinin Rusiyanın səlahiyyətli orqanlarının onun qızının insan alverçiləri tərəfindən qaçırılması, sonradan ölümünün araşdırılması və insan alveri riskindən qorunması üçün tədbirlər görmədiyindən şikayətlənmişdir.

Məhkəmə qeyd etmişdir ki, köləlik kimi insan alveri də öz xarakterinə görə istismar məqsədilə mülkiyyət hüququna aid olan səlahiyyətlərin həyata keçirilməsinə əsaslanır; burada insanlarla əşya kimi davranılmış, onlar satın alınmış və satılmış, məcburi əməyə cəlb edilmişdir; burada qurbanların tez-tez məhdudlaşdırılan fəaliyyəti yaxından izlənilmişdir; və qurbanlara qarşı zorakılıq və təhdidlərdən istifadə olunmuşdur. Buna müvafiq olaraq Məhkəmə insan alverinin Konvensiyanın 4-cü maddəsi (köləliyin və məcburi əməyin qadağan olunması) ilə qadağan olunduğu qənaətinə gəlmişdir. Qərara alınmışdır ki, Konvensiyanın **4-cü maddəsinə** əsasən, iki bənd üzrə Kipr tərəfindən **pozitiv öhdəliklər pozulmuşdur**: birincisi, mövcud "artiste" viza rejimi nəticəsində insan alveri ilə mübarizə üçün müvafiq hüquqi və inzibati tənzimetmənin formalaşdırılmaması, ikincisi isə polis tərəfindən ərizəçinin qızının insan alveri qurbanı ola biləcəyinə dair inandırıcı şübhə yaranmış olduqda belə, insan alverindən qorumaq üçün əməliyyat-axtarış tədbirlərinin görülməməsi. Məhkəmə ərizəçinin qızının necə və harada cəlb edilməsi faktı araşdırılmadığı və xüsusilə də onun cəlb edilməsində təqsiri olan şəxslərin dairəsinin, eləcə də istifadə edilmiş cəlbetmə metodlarının müəyyənləşdirilməsi üçün tədbirlər görülmədiyi səbəbilə Rusiyanın Konvensiyanın 4-cü maddəsini pozduğu qənaətinə gəlmişdir. Eyni zamanda Məhkəmə qərara almışdır ki, Kiprin səlahiyyətli orqanları tərəfindən ərizəçinin qızının ölüm faktının səmərəli istintaqı aparılmadığı üçün Konvensiyanın **2-ci maddəsi** (yaşamaq hüququ) **pozulmuşdur**.

**L.E. Yunanıstana qarşı (Ərizə № 71545/12)**

21 yanvar 2016-cı il

Bu iş Yunanıstanda fahişəliyə məcbur edilmiş bir Nigeriya vətəndaşının şikayəti barəsində olmuşdur. Cinsi istismar məqsədilə insan alverinin qurbanı olaraq rəsmi şəkildə tanınan ərizəçi ədliyyə sistemi tərəfindən sözügedən statusun verilməsi üçün səlahiyyətli orqanlar onun vəziyyəti haqqında məlumatlandırdıqdan sonra doqquz aydan artıq müddətə gözləməli olmuşdur. O, xüsusi olaraq təsdiq etmişdir ki, Yunanıstan dövlətinin Konvensiyanın 4-cü maddəsi (köləliyin və məcburi əməyin qadağan olunması) üzrə müsbət öhdəliklərinə riayət etməməsi sözügedən müddəanın pozulmasına gətirib çıxarmışdır.

Məhkəmə Konvensiyanın **4-cü maddəsinin** (köləliyin və məcburi əməyin qadağan olunması) **pozulduğu** qənaətinə gəlmişdir. O, xüsusilə müəyyən etmişdir ki, iş üzrə ilkin təhqiqatın və istintaqın sonrakı mərhələsinin səmərəli aparılmasında bir sıra çatışmazlıqlar müşahidə olunmuşdur. İnzibati və məhkəmə prosesinə gəldikdə, Məhkəmə Yunanıstan dövlətinin prosessual öhdəlikləri ilə əlaqədar bir çox gecikmələr və pozuntuların olduğunu da qeyd etmişdir.

Bu halda Məhkəmə, həmçinin Konvensiyanın **6-cı maddəsinin 1-ci bəndinin** (ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququ) **pozulması** qənaətinə gəlmiş və sözügedən məhkəmə prosesinin uzanma müddətinin bir yurisdiksiya səviyyəsi üçün hədsiz çox olduğunu və "ağlabatan müddət" tələbinə cavab vermədiyini müəyyən etmişdir.

Məhkəmə son olaraq, ərizəçinin ağlabatan müddətdə məhkəmə dinləməsi hüququndan istifadəsini rəsmiləşdirəcək daxili qanunvericilikdə hüquqi müdafiə vasitələrinin olmaması səbəbindən Konvensiyanın **13-cü maddəsinin** (səmərəli hüquqi müdafiə vasitələri hüququ) **pozulması** qənaətinə gəlmişdir.

**J. və digərləri Avstriyaya qarşı (Ərizə № 58216/12)**

16 yanvar 2017-ci il

Bu iş Avstriyanın səlahiyyətli orqanlarının insan alveri ilə bağlı şikayətin istintaqı barəsində olmuşdur. İki Filippin vətəndaşı Birləşmiş Ərəb Əmirliyində xidmətçi və ya ev qulluqçusu kimi işləməyə gəldiklərini, işəgötürənlər tərəfindən onların pasportlarının əllərindən alındığını və onları istismar etdiklərini təsdiq etmişdir. Onlar ərizələrində göstərmişlər ki, bu rəftar işəgötürənləri tərəfindən onların aparıldığı Vyanada qaldıqları qısa müddətdə davam etmiş və nəhayət, oradan qaçmağı bacarmışlar. Avstriyadakı işəgötürənlərinə qarşı ərizəçilərin verdiyi şikayətdə səlahiyyətli orqanlar müəyyən etmişdir ki, onlar xaricdə törədildiyi iddia edilən cinayət hadisələri ilə bağlı heç bir yurisdiksiyaya malik deyil və Avstriyada baş verən hadisələrlə əlaqədar ibtidai araşdırmaya ixatm verilməsi haqqında qərar çıxarılmışdır. Ərizəçilər israrla bildirmişlər ki, onlar məcburi əmək və insan alverinə məruz qalmış və Avstriyanın səlahiyyətli orqanları onların şikayətinin səmərəli və ətraflı istintaqını aparmağa müvəffəq olmamışdır. Onlar Avstriyada baş verən hadisələrin ayrı-ayrılıqda baxılmamasının vacibliyini və Avstriya Hökumətinin beynəlxalq hüquqa əsasən xaricdə baş verən hadisələri araşdırmaq üçün üzərinə öhdəlik götürdüyünü xüsusilə vurğulamışlar.

Məhkəmə Avstriyanın səlahiyyətli orqanlarının ərizəçiləri insan alverinin (potensial) qurbanları kimi qorumaqda öz vəzifələrini yerinə yetirdiyini təsbit edərək **4-cü** (köləliyin və məcburi əməyin qadağan olunması) və **3-cü maddənin** (işgəncələrin qadağan olunması) **pozulmuş olmadığı** qənaətinə gəlmişdir. Qeyd edildiyi kimi, Konvensiya çərçivəsində Filippində ərizəçilərin işə götürülməsini və ya Birləşmiş Ərəb Əmirliyində iddia edilən istismarını araşdırmaq üçün Konvensiyanın 4-cü maddəsində heç bir öhdəlik yoxdur. Çünki sözügedən maddədə xaricdə törədilən insan alveri cinayətlərinə dair universal yurisdiksiyanı təmin etmək tələb olunmur. Avstriyada baş vermiş hadisələrlə bağlı isə Məhkəmə belə bir nəticəyə gəlmişdir ki, səlahiyyətli orqanlar tərəfindən bu vəziyyətdə gözlənilən bütün tədbirlər əsaslı şəkildə görülmüşdür. Hökumət tərəfindən maliyyələşdirilən bir QHT–nin yardım etdiyi ərizəçilərin xüsusi ixtisaslaşmış polis əməkdaşları tərəfindən ifadəsi alınmış, onlara Avstriyada qalmaq üçün müntəzəm olaraq yaşayış və iş icazələr verilmiş və onların mühafizəsi məqsədilə fərdi məlumatlarının açıqlanmasına qadağa qoyulmuşdur. Bundan başqa, ərizəçilərin Vyanada qalmaqları ilə əlaqədar şikayətlərinin istintaqı yetərli aparılmış, işin faktlarını və mövcud sübutları nəzərə alaraq səlahiyyətli orqanların fəaliyyət nəticələri ağlabatan olmuşdur. Avstriya ilə Birləşmiş Ərəb Əmirlikləri arasında heç bir qarşılıqlı hüquqi yardım müqaviləsi olmadığı və sözügedən hadisələrdən təxminən bir il sonra ərizəçilərin polisə müraciəti zamanı işəgötürənlər ölkəni artıq tərk etdiyi səbəbindən, bu işdə ərizəçilərin işəgötürənləri ilə qarşılaşdırılması kimi məsələlər yetərli bir uğurun əldə olunmasına səbəb olmamışdır.

**S.M. Xorvatiyaya qarşı (Ərizə № 60561/14)**

25 iyun 2020-ci il (Böyük Palata)

Bu iş bir xorvat qadının insan alveri və məcburi fahişəlik barədə şikayəti ilə əlaqədardır. Ərizəçi bildimrişdir ki, onun şikayətinə rəsmi prosedur çərçivəsində adekvat reaksiya göstərilməyib.

Məhkəmə qərara almışdır ki, ərizəçinin məcburi fahişəlik üzrə şikayəti ilə bağlı Xorvatiyanın səlahiyyətli orqanlarının apardığı istintaqda olan çatışmazlıqlar səbəbindən Konvensiyanın **4-cü maddəsi** (kölü myin viar səbəbindən Konvensiyanın siya) **pozulmuşdur**. Məhkəmə fahişəliyin istismarı məqsədilə həyata keçirilən insan alverinə aid öz presedent hüququnu izah etmək üçün ərizəçinin işindən fürsət kimi istifadə edərək qeyd etmişdir ki, Konvensiyanın 4-cü maddəsi əsasında konkret davranışı və ya vəziyyəti insan alveri kimi xarakterizə edə biləcəyinə və müvafiq olaraq bu maddənin işin konkret hallarına tətbiq

oluna biləcəyinə dair qərar vermək üçün o, beynəlxalq hüquqda verilmiş anlayışa istinad edir. Məhkəmə, həmçinin aydınlıq gətirmişdir ki, Konvensiyanın 4-cü maddəsində nəzərdə tutulmuş "məcburi və ya icbari əmək" anlayışı işin konkret hallarının insan alveri ilə əlaqəli olmasından asılı olmayaraq, məcburi fahişəlik kimi ciddi istismar hallarına qarşı müdafiəni təmin etmək məqsədi daşıyır. Məhkəmənin gəldiyi qənaətə görə, 4-cü maddə ərizəçinin işinə tətbiq edilə bilər, çünki burada insan alverinin və məcburi fahişəliyin müəyyən xüsusiyyətləri, məsələn, köməksiz vəziyyətdə olan şəxsə münasibətdə hakimiyyət səlahiyyətlərindən sui-istifadə, məcburetmə, aldatma və himayəyə alma kimi əlamətlər mövcud olmuşdur. Konkret olaraq, ərizəçi ona qarşı sui-istifadəyə yol verən tərəfin polis olduğunu iddia edirdi. Belə ki, o, 10 yaşından etibarən dövlət himayəsinə götürülmüşdü, polis ilk dəfə onunla Facebook vasitəsilə əlaqə saxlayaraq onu inandırmışdı ki, iş tapmaqda kömək edəcək. Bunun əvəzinə, kirayəyə götürdüyü mənzildə və ya müştərilərlə görüşə aparmaqla onun müştərilərə seksual xidmətlər göstərməsini təşkil etmişdi. Bu vəziyyət prokurorluq orqanlarının ərizəçinin şikayətini araşdırmaq vəzifəsi daşıdığını təsdiq edir. Amma onlar istintaqı açıq-aşkar bəlli olan istiqamətdə aparmamış, bütün mümkün şahidləri dindirməmişdilər ki, nəticədə məhkəmə prosesində ərizəçinin şikayətləri söz olaraq qalmışdı. Bu cür çatışmazlıqlar milli hakimiyyət orqanlarının ərizəçiyə qarşı sui - istifadəyə yol verdiyi iddia edilən şəxslə ərizəçi arasındakı münasibətlərin həqiqi mahiyyətini və ərizəçinin həqiqətən onun tərəfindən istismar olunub-olunmadığını müəyyənləşdirmək imkanına xələl gətirmişdi.

## Fiziki şəxslər tərəfindən zorakılıq

### Sandra Jankoviç Xorvatiyaya qarşı

5 mart 2009-cu il

Ərizəçi (qadın) şikayətində xüsusi olaraq bildirmişdir ki, otaq yoldaşları tərəfindən hücuma məruz qalması və təhdid edilməsi ilə bağlı iddialarının araşdırmasına dair göstərdiyi səylərə baxmayaraq, səlahiyyətli orqanlar onun müvafiq mühafizəsini təmin etməmişdir. Məhkəmə Xorvatiyanın səlahiyyətli orqanları tərəfindən ərizəçinin fiziki toxunulmazlığına qarşı hücumdan kifayət qədər müdafiə edilməsinə müvəffəq olmamağı və tətbiq edilmiş milli cinayət qanunvericiliyi mexanizmləri səbəbindən Konvensiyanın **8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) **pozulduğu** qənaətinə gəlmişdir.

### Ebcin Türkiyəyə qarşı

1 fevral 2011-ci il

Müəllimlik peşəsi ilə məşğul olan ərizəçi işə gedərkən yolda iki fiziki şəxsin hücumuna məruz qalmış və bu iki şəxs onun üzünə sulfat turşusu atmışdır. O, bir il yarım işləyə bilməmiş və üç il müalicə almışdır. O, hələ də ağır fiziki təsirlərdən əziyyət çəkir. Ərizəçi şikayətində xüsusi olaraq bildirmişdir ki, səlahiyyətli orqanlar onun təhlükəsizliyini qorumaq və təqsirləndirilən şəxsləri dərhal cəzalandırmaq öhdəliyini yerinə yetirməyə müvəffəq olmamışdır.

Məhkəmə Konvensiyanın **3-cü** (işgəncələrin qadağan olunması) **və 8-ci maddəsinin** (şəxsi həyata və ailə həyatına hörmət hüququ) prossesual-hüquqi baxımdan **pozulduğu** qənaətinə gəlmiş və inzibati və cinayət mühakimə icraatının ağır zorakılıq halına qarşı adekvat mühafizəni təmin etmədiyini müəyyən etmişdir.

### İrina Smirnova Ukraynaya qarşı

13 oktyabr 2016-cı il

Bu iş cinayətkar qrup tərəfindən ərizəçiyə qarşı törədilmiş sistemli zorakılıq və Ukraynanın səlahiyyətli orqanları tərəfindən bunun qarşısının alınmasına müvəffəq olmadığı barədədir. Məhkəmə Konvensiyanın **3-cü maddəsinin** (işgəncələrin qadağan olunması) **pozulduğu** qənaətinə gəlmişdir. Məhkəmə xüsusi olaraq qeyd etmişdir ki, yaşlı subay qadın olan ərizəçinin bir qrup şəxs tərəfindən məruz qalmış olduğu şifahi təhqir hücumlarının

təkrarlanması və qəsdən törədilmə xarakteri fiziki zorakılıq halları ilə müşayiət olunmuş, 3-cü maddədə nəzərdə tutulmuş amansızlıq səviyyəsinə çatmışdır və hüquqi-mühafizənin və inzibati tənzimləmənin həyata keçirilməsinə dair dövlət qarşısında öhdəlik qoymuşdur. Əsas cinayətkarların mühakimə olunaraq müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olmasına baxmayaraq, Ukraynanın səlahiyyətli orqanları tərəfindən problemin həlli on iki ildən artıq müddətə qədər davam etmişdir. Məhkəmə cinayət mühakimə icraatının başlanmasında və aparılmasında həddindən artıq gecikmələr nəzərə alınmaqla, Konvensiyanın 3-cü maddəsi ilə əlaqədar Ukraynanın pozitiv öhdəliyini yerinə yetirə bilmədiyini müəyyən etmişdir.

**Tërshana Albaniyaya qarşı**

4 avqust 2020-ci il

Bu iş 2009-cu ildə kimyəvi turşudan istifadə edilməklə ərizəçiyə qarşı edilmiş hücumla əlaqədar idi. Ərizəçi hücumun arxasında məişət zorakılığında ittiham etdiyi keçmiş ərinin dayandığından şübhələnirdi. O, konkret olaraq bildirmişdir ki, Albaniyanın səlahiyyətli orqanları onu kimyəvi turşu hücumundan qorumaq və hücum edənin kimliyini müəyyənləşdirmək, mühakimə etmək və cəzalandırmaq üçün operativ və səmərəli araşdırma aparmayıblar.

Məhkəmə Konvensiyanın **2-ci maddəsinin** (yaşamaq hüququ) maddi-hüquqi (substantiv) aspektinin **pozulmadığını** qərara alaraq bu qənaətə gəlmişdir ki, Albaniya dövləti hücuma görə məsuliyyət daşıya bilməzdi. Xüsusi olaraq qeyd edilmişdir ki, dövlət ərizəçi üçün risk olduğunu bilsə idi, qabaqlayıcı tədbirlər görmək vəzifəsi daşıyardı. Amma indiki halda milli səlahiyyətli orqanlar yalnız hadisədən sonra ərizəçinin keçmiş ərinin zorakı davrandığını öyrənmişdilər. Digər tərəfdən, Məhkəmə Konvensiyanın **2-ci maddəsinin** prosessual aspektinin **pozulduğunu** qərara alaraq bu qənaətə gəlmişdir ki, səlahiyyətli orqanların kimyəvi turşu hücumuna reaksiyası səmərəsiz olmuşdur. Belə ki, gender əsaslı zorakılıq əlamətlərini özündə daşıyan və bu səbəbdən hakimiyyət orqanlarını xüsusi səylə hadisəyə reaksiya göstərməyə sövq etməli olan hücumla bağlı istintaq ərizəçinin üstünə atılmış maddəni müəyyənləşdirə bilməyib. Eyni zamanda, 2010-cu ildə cinayəti törədən şəxsin kimliyi müəyyənləşdirilmədən ibtidai araşdırma dayandırılıb və o vaxtdan bəri ərizəçinin dəfələrlə verdiyi müraciətlərə baxmayaraq istintaqın gedişatı barədə ona heç bir məlumat verilməyib.

**Sabalić Xorvatiyaya qarşı**

14 yanvar 2021-ci il

Homoseksual oriyentasiyasını açıqladığı bir kişi tərəfindən barda hücuma məruz qalmış ərizəçi konkret olaraq şikayət etmişdir ki, onun seksual oriyentasiyası zəminində fiziki şəxs tərəfindən məruz qaldığı zorakılıq aktına münasibətdə ölkədaxili səlahiyyətli orqanlar lazımi prosessual tədbirlər görməmişdir.

Məhkəmə qərara almışdır ki, Konvensiyanın **14-cü maddəsi** (ayrı-seçkiliyin qadağan olunması) ilə **əlaqəli şəkildə götürülmüş 3-cü maddəsi** pozulmuşdur (işgəncələrin qadağan olunması). Məhkəmənin gəldiyi qənaətə görə, ərizəçiyə hücum etmiş şəxs barəsində aparılmış az əhəmiyyətli hüquqpozma üzrə məhkəmə icraatında nifrət zəminində cinayət elementi nəzərdən keçirilməmiş və proses gülünc məbləğdə cərimənin təyin edilməsi ilə nəticələnmişdi. Bu çatışmazlıqlar ibitdai araşdırmanın başlıca mənfi keyfiyyətləri təşkil etmişdi. Ona görə də səlahiyyətli orqanlar ərizəçinin ikiqat təhlükə ilə əlaqədar cinayət işi açılması üçün verdiyi şikayət ərizəsini rədd etmək əvəzinə az əhəmiyyətli hüquqpozma üzrə icraata xitam verməli və ya icraatı ləğv etməli və işə yenidən baxmalı idilər.

*Həmçinin bax*:
**Pulfer Albaniyaya qarşı**
20 noyabr 2018-ci il

## Əlavə oxu materialları

Həmçinin bax: Avropa Şurasının veb-səhifəsində: **"Qadınlara qarşı zorakılıq və məişət zorakılığı"**

**Mətbuatla əlaqə:**
Tel.: + 33 (0)3 90 21 42 08

Tərcümə Avropa İttifaqı tərəfindən birgə maliyyələşdirilir

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE